

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 28 (768) ▪ 23 iyul 2015 www.vergiler.az Qiyməti: 40 qəp.


# Azərbaycan mətbuatı şərəfli inkişaf yolu keçib

## *Prezident İlham Əliyev Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşüb*



İyulun 21-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli mətbuatın yaradılmasının 140 illiyi münasibətilə Mətbuat Şurasının İdarə Heyətinin üzvləri ilə görüşüb. KİV nümayəndələrini və Azərbaycan xalqını milli mətbuatımızın 140 illik yubileyi münasibətilə təbrik edən dövlətimizin başçısı bildirib ki, yubileyini qeyd edən Azərbaycan milli mətbuatının böyük tarixi var: «Bu, bizim böyük sərvətimizdir, dəyərimizdir. Ancaq bu da həqiqətdir ki, müstəqillik dövründə Azərbaycan mətbuatı tam azad və müstəqil mətbuat kimi fəaliyyət göstərməyə başlamışdır. Bu barədə biz sizinlə dəfələrlə danışmışıq, - xüsusilə 1998-ci ildə Prezident Heydər Əliyevin tarixi fərmanı ilə senzuranın ləğv olunması mətbuat üçün yeni dövr açdı və Azərbaycan mətbuatı artıq tam şəkildə azad mətbuat kimi fəaliyyət göstərməyə başlamışdır».

Bu gün Azərbaycan mətbuatının yeni səviyyəyə qalxdığını və dövlətimizin azad mətbuatın inkişafına göstərdiyi yüksək dəstəyi vurğulayan ölkə Prezidenti qeyd edib ki, bizim siyasətimiz istənilən sahədə səmimidir və birmənalıdır: «Azərbaycan cəmiyyəti bizim siyasətimizlə bağlı fikirləri vaxtaşırı təbii ki, eşidir. Bizim hər bir məsələ ilə bağlı mütəmadi qaydada konkret yanaşmamız var. Hesab edirəm ki, istər siyasi və iqtisadi islahatlarla, beynəlxalq məsələlərlə, ölkə daxilində gedən proseslərlə, o cümlədən mətbuatın inkişafı ilə bağlı Azərbaycan iqtidarının mövqeyi cəmiyyət üçün artıq bəllidir. Mən tam əminəm ki, Azərbaycan bundan sonra da demokratiyanın inkişafı yolu ilə gedəcək. Bu, bizim şüurlu seçimimizdir. Biz bunu kiminsə xoşuna gəlmək üçün yox, ona görə edirik ki, bu, cəmiyyət üçün lazımdır. Mən dəfələrlə demişəm, siyasi islahatlar iqtisadi islahatlarla paralel şəkildə aparılmalıdır ki, Azərbaycanın dayanıqlı inkişafı təmin edilsin».

Prezident İlham Əliyev mətbuatın ölkədə gedən müxtəlif proseslərlə bağlı operativ məlumat verdiyini, hansısa xoşagəlməz vəziyyət yarananda məlumatı mətbuat vasitəsilə əldə etdiyini diqqətə çatdırıb: « Bu, mənim üçün də çox əhəmiyyətlidir. Çünki yəqin, siz də bilirsiniz ki, Prezidentin hadisələrlə bağlı bilavasitə mətbuata çıxışı yoxdur, vasitəçilər, köməkçilər, administrasiya işçiləri, digər mənbələr var. Ona görə, bəzi hallarda məlumat ya gecikir, ya gəlmir, ya da, o da sirr deyil ki, məlumatı gizlətmək istəyirlər. Ona görə, Azərbaycanda azad mətbuatın mövcudluğu mənim də işimi yüngülləşdirir. Administrasiyada, digər yerlərdə, digər strukturlarda işləyənlər bunu bilirlər ki, mən bəzi hallarda məlumatı onlardan tez əldə edirəm və dərhal reaksiya verirəm. Ən azı, bu, yoxlanılmalıdır, əgər həqiqətdirsə ölçü götürülməlidir. Ona görə, sizin işiniz mənim üçün də çox dəyərlidir, əhəmiyyətlidir və mən bunu yüksək qiymətləndirirəm».

Azərbaycan Prezidenti respubkilkamızın iqtisadi və siyasi gücünün artdığını, beynəlxalq mövqeyinin möhkəmləndiyini xatırladaraq, bununla yanaşı, ölkəmizə qarşı beynəlxalq mediada ədalətsiz kampaniyanın aparıldığını da vurğulayıb. Bildirib ki, bu kampaniya ikili standartlar əsasında qurulubdur. Eyni zamanda, bu cür kampaniyaların arxasında daha çox erməni lobbisi dayanır: «Bir çox hallarda Azərbaycana qarşı yazılan məqalələrin arxasında biz uzun erməni qulaqlarını görürük və onlar bizi hədəf seçiblər. Dünya erməniliyi üçün bir nömrəli hədəf Azərbaycandır. Mən bunu bir dəfə demişəm, bir daha demək istəyirəm ki, bizim əsas düşmənimiz erməni lobbisidir». Bundan sonra da müxtəlif xarici mətbu orqanlarda Azərbaycanla bağlı təhqiramiz, yalan, böhtan əsasında yazılmış məqalələrlə üzləşəcəyimizi istisna etməyən Prezident İlham Əliyev bildirib ki, bu proseslərə hazır olmalıyıq, Azərbaycan həqiqətlərini dünyaya çatdırmalıyıq: «Hesab edirəm ki, gələcəkdə xarici dillərdə internet saytlarının sayı daha da çox olmalıdır. Bu gün bu saytlar var və biz onların sayını artırmalıyıq. Hesab edirəm ki, Azərbaycanın ən reytinqli internet saytlarının mütləq başqa dillərdə də variantları olmalıdır. Çünki biz ölkə daxilindəki problemləri, əlbəttə ki, aşkar edirik, görürük, həll etməyə çalışırıq. Ancaq biz Azərbaycan həqiqətlərini dünyaya çatdırmalıyıq. Bugünkü Azərbaycan necə inkişaf edir? Hansı nailiyyətləri var? Dünya xəzinəsinə hansı töhfələr veribdir? Bu istiqamətdə hələ görüləsi işlər çoxdur. Burada əlbəttə ki, dövlət dəstəyi də olmalıdır və olacaqdır».

Dövlət başçısı qeyd edib ki, Azərbaycanı dünya media məkanına müasir, inkişafda olan, açıq, tolerant ölkə kimi təqdim etməliyik. Bununla bərabər, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həm tarixi həqiqətləri, həm dövlətimizin mövqeyini və ümumiyyətlə, indiki vəziyyəti daha geniş işıqlandırmalıyıq: «Çünki Ermənistan daim çalışır ki, mahiyyətlə bağlı məlumatlar heç yerə çıxmasın. Bəli, deyirlər münaqişə var, gəlin bunu sülh yolu ilə həll edək. Amma münaqişə necə yaranıb? Bunun səbəbləri nədir? İşğalçı kimdir? İşğalın qurbanları kimlərdir? Yəni, bu barədə əlbəttə ki, onlar və onlarla əlbir olan xarici media qurumları heç bir məlumat vermirlər. Bu missiya bizim üzərimizə düşür və həm özümüz bunu etməliyik. Xarici media resursları ilə bizim daha sıx əlaqələrimiz olmalıdır. Bilirəm ki, indi xarici jurnalistlər Azərbaycana vaxtaşırı səfərlər edirlər. Həmçinin erməni təbliğatı nəticəsində Azərbaycan haqqında formalaşmış qeyri-adekvat rəy də onlar ölkəmizə gələndən sonra tamamilə aradan götürülür. Ona görə, həm xarici media nümayəndələrini Azərbaycana dəvət etmək, Azərbaycan jurnalistlərinin xaricə səfərlərini təşkil etmək vacibdir. Qərbin aparıcı media qurumları ilə əməkdaşlıq formatı yaradılmalıdır, məsləhətləşmə, yaxud da ki, sadəcə olaraq informasiya mübadiləsi aparılmalıdır. Biz bu yolla, ilk növbədə, Dağlıq Qarabağ münaqişəsinin həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün xarici media məkanına daha çox çıxış əldə edə bilərik».

Tədbirdə çıxış edən jurnalislər Azərbaycan milli mətbuatının inkişafında və media təmsilçilərinə dövlət dəstəyinin artırılmasında Prezident İlham Əliyevin fəaliyyətini yüksək qiymətləndiriblər. Qeyd olunub ki, President İlham Əliyev mətbuata yüksək diqqət və qayğı göstərdiyinə görə, Azərbaycan jurnalistlərinin dostu hesab olunur. Bu dostluq ölkəmizdə vətəndaş cəmiyyəti təməlinin daha da möhkəmlənməsinə xidmət prinsipini rəhbər tutur.

Sonra Prezident İlham Əliyevə Azərbaycanın milli maraqlarının qorunmasında qətiyyətli mövqeyinə görə xüsusi mükafat təqdim olunub.

Tədbirin sonunda Prezident İlham Əliyev Əflatun Əhməd oğlu Amaşova və Vüqar Müzəffər oğlu Səfərliyə 3-cü dərəcəli «Vətənə xidmətə görə» ordenlərini, Rauf Arif oğlu Abbasova və Azər Hacıqulu oğlu Həsrətə «Əməkdar jurnalist» fəxri adlarının vəsiqələrini və döş nişanlarını təqdim edib.

# Avropa İttifaqı Azərbaycanı vacib tərəfdaş hesab edir

*İyulun 22-də Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk ölkəmizə rəsmi səfərə gəlib. Azərbaycan Qarşılanma mərasimindən sonra Azərbaycan Prezidenti İlham Əliyev və Donald Tusk nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşüblər. Sonra dövlətimizin başçısı və Avropa İttifaqı Şurasının prezidentinin təkbətək görüşü olub.*

Tərəflər arasında görüş başa çatdıqdan sonra Azərbaycan Prezidenti İlham Əliyevin və Avropa İttifaqı Şurasının prezidenti Donald Tuskun birgə mətbuat konfransı olub. Dövlətimizin başçısı İlham Əliyev və Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk əvvəlcə bəyanatlarla çıxış ediblər. Prezident İlham Əliyev bildirib ki, Aİ ilə Azərbaycan arasında münasibətlər dinamik inkişaf edir: «Uzun illər aramızda məhsuldar münasibətlər formalaşıb. Biz ikitərəfli fikir mübadiləsi apardıq. Müsbət irəliləyişlər var». Enerji təhlükəsizliyi sahəsində Avropa İttifaqı ilə yaxşı tərəfdaşlığın mövcud olduğunu bildirən dövlətimizin başçısı birgə regional layihələrin əhəmiyyətinə toxunub: «Cənubi qaz dəhlizi» layihəsi ölkələri birləşdirən layihədir. Bu isə istehsalçı, istehlakçı və tranzit ölkələrə xidmət edən bir layihədir. Ölkələr arasında tarazlıq təmin edilməlidir. Bu, fevral ayında Bakıda məşvərət şurasının iclasında qəbul edilən bəyannamədə öz əksini tapıb. Bu ilin mart ayında TANAP layihəsinin tikintisi başlayıb. Biz işləri vaxtında aparırıq. Enerji təhlükəsizliyi milli təhlükəsizlikdən ayrı ola bilməz. Bu layihə həm də enerji diversifikasiyası layihəsidir və nəinki marşrutların, həmçinin mənbələrin də şaxələndirilməsi deməkdir. Azərbaycan öz ehtiyatları, infrastrukturu və təcrübələri ilə belə bir meqalayihəni həyata keçirmək əzmindədir».

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə danışan Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazisi işğal altındadır: «BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycandan qeyd-şərtsiz çıxarılması ilə bağlı 4 qətnaməsi qəbul edilib. Ermənistan bu qətnamələri yerinə yetirmir. Bizim bir milyondan çox qaçqın və məcburi köçkünümüz var. Xalqımız etnik təmizləməyə məruz qalıb. Biz münaqişənin beynəlxalq norma və prinsiplər çərçivəsində həll olunmasını istəyirik. Ümid edirik ki, gələcəkdə işğalçıya daha çox təzyiq göstəriləcək ki, Azərbaycan torpaqlarını geri qaytarsın və danışıqlar prosesini yekunlaşdırsın. Gələcəkdə artıq münasibətlərin normallaşmasından danışa bilərik. Azərbaycanın ərazi bütövlüyü digər ölkələrin ərazi bütövlüyü kimi dəyərli məfhumdur».



Donald Tusk bəyanatla çıxış edərək bildirib ki, Azərbaycan Avropa İttifaqının vacib tərəfdaşlarındandır: «Biz gələcəkdə atacağımız addımlar barədə danışdıq. Azərbaycan Aİ-nin etibarlı tərəfdaşıdır və biz bu tərəfdaşlığı davam etdirmək istəyirik. Biz ikitərəfli sazişlərimizi həyata keçirmək üzrəyik. Bu baxımdan strateji əməkdaşlıq sazişi mühüm rol oynayır. Dağlıq Qarabağ münaqişəsi barədə mövqeyini bəyan edən Donald Tusk bildirib ki, Avropa İttifaqı Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini dəstəkləyir. «Biz ümidvarıq ki, Dağlıq Qarabağ münaqişəsi yaxın vaxtlarda həllini tapacaq. Biz Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllini istəyirik. Münaqişənin həlli fəaliyyətimizin prioriteti olmalıdır. Biz ATƏT çərçivəsində aparılan Minsk prosesini dəstəkləyirik».


2 | Dövlət idarəçiliyində peşəkar kadr siyasəti önəmli rol oynayır

3 | Vergilər Nazirliyi beynəlxalq əməkdaşlığın genişləndirilməsinə böyük önəm verir

4 | Ölkəmizə xarici sərmayə qoyuluşlarının həcmi artıb

5 | Vergi öhdəliyinə hər kəs əməl etməlidir

## Tədris Mərkəzinin saytı fəaliyyətə başlayıb

*Bu günlərdə Vergilər Nazirliyinin Tədris Mərkəzinin rəsmi internet səhifəsi hazırlanıb və **tedris.taxes.gov.az** domeninində yerləşdirilib.*

İnternet səhifəsi ana səhifə və 7 bölmədən ibarətdir. Burada Tədris Mərkəzi haqqında ümumi məlumat, struktur bölmələrinin əsasnamələri, kafedralar, şöbələr və bölmələrin fəaliyyəti barədə məlumatlar, Mərkəzdə keçirilən tədbirlər barədə məlumatlar yerləşdirilmişdir.

Bununla yanaşı, Tədris Mərkəzində təşkil olunan ilkin hazırlıq, ixtisasartırma və qısamüddətli təlimlərin qrafiki, tədris mövzu planları, təlim materialları və qiymətləndirmə sualları da saytda yerləşdirilmişdir. Dinləyicilər qiymətləndirmə sualları vasitəsilə biliklərini yoxlaya, zəif bildikləri istiqamətlər üzrə təlim materiallarından istifadə etməklə biliklərini artıra bilərlər.

İnternet səhifəsinin «Faydalı» bölməsində Tədris Mərkəzinin fəaliyyətinə dair hesabatlar, faydalı linklər, nəşrlər və 500 anlayışdan ibarət vergi terminləri lüğəti də yerləşdirilmişdir.

## Fərdi sahibkarların onlayn qeydiyyatı

*Vergilər Nazirliyinin Kollegiyasının qərarı ilə 8 sentyabr 2013-cü ildən həyata keçirilən «Fərdi sahibkarların onlayn qeydiyyatı» elektron xidməti üzrə inzibati reqlamentlər bu ilin may ayında ləğv edilərək yenidən təsdiq olunub.*

Yeni reqlamentə görə, «Fərdi sahibkarların onlayn qeydiyyatı» xidməti ölkə vətəndaşlarının, əcnəbi və vətəndaşlığı olmayan şəxslərin elektron qaydada vergi uçotuna alınmasını əhatə edir. Xidmət tam avtomatlaşdırılıb və fiziki şəxsin onlayn qeydiyyatı dərhal həyata keçirilir.

Xidmətin göstərilməsi nəticəsində fərdi sahibkar vergi uçotuna alınaraq vergi ödəyicisinin eyniləşdirmə nömrəsi verilir və müvafiq şəhadətnamə onun elektron ünvanına real vaxt rejimində göndərilir. Fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamənin kağız daşıyıcılarda alınması üçün vergi ödəyicisinin özü və ya onun səlahiyyətli nümayəndəsi şəxsiyyəti təsdiq edən sənədlə Vergilər Nazirliyinin müvafiq yerli vergi orqanına müraciət etməli və xüsusi kitabda imza atmalıdır.

Elektron xidmətin göstərilməsi üçün fiziki şəxsin vergi uçotu haqqında ərizə tələb olunur. Xidmətin təqdim edildiyi elektron ünvandan ərizədə olan məlumatlar interaktiv şəkildə fərdi sahibkar tərəfindən sistemə daxil edilir. Ölkə vətəndaşları üçün Daxili İşlər Nazirliyi tərəfindən verilmiş şəxsiyyət vəsiqəsinin məlumatları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün isə Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş Azərbaycan Respublikasının ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsinin məlumatları sistemə daxil edilir. Elektron xidmətin göstərilməsi üçün tələb olunan sənədlər ölkə vətəndaşının şəxsiyyət vəsiqəsi, əcnəbi və vətəndaşlığı olmayan şəxsin isə Azərbaycan ərazisində müvəqqəti və ya daimi yaşamaq üçün icazə vəsiqəsi seçilir.

Sözügedən xidmət İnternet Vergi İdarəsi Portalının «Onlayn kargüzarlıq və e-VHF» bölümü üzərindən aparılır. Bu məqsədlə fiziki şəxs gücləndirilmiş elektron imza vasitəsilə həmin bölümə daxil olur və «Fiziki şəxsin vergi uçotu haqqında ərizəsi»ni seçir. Bu halda ekrana elektron ərizə forması çıxır. İstifadəçi həmin pəncərədə poçt olaqəsinin aparılacağı ünvanı seçir, fəaliyyət sahəsinin kodunu daxil edir və «Əlavə et» düyməsini basır. Bu zaman fəaliyyət sahəsinin məlumatları alt cədvələ düşür. Əvvəlki 9 rəqəmli VÖEN daxil edilir və «Yoxla» düyməsi basılır. Daxil edilmiş məlumatlar vizual yoxlanılır və əgər həyata keçirilmiş əməliyyat doğrudursa, «Tanış oldum, məlumatların doğruluğunu təsdiqləyirəm» ifadəsinin qarşısındakı boş xana işarələnir və «İmzala və göndər» düyməsi sıxılır. Ərizə gücləndirilmiş elektron imza ilə imzalandıqdan sonra sistem tərəfindən ekrana «Fiziki şəxsin vergi uçotu haqqında ərizəsi»nin onlayn qəbul olunması haqqında «Bildiriş» çıxarılır və sənədə 16 rəqəmli qeydiyyat nömrəsi verilir.

Fərdi sahibkarın e-qeydiyyatından ölkə vətəndaşının, əcnəbinin və vətəndaşlığı olmayan şəxsin şəxsiyyətini təsdiq edən sənədin FİN-i üzrə Daxili İşlər Nazirliyinin və ya Dövlət Miqrasiya Xidmətinin informasiya sistemlərinə göndərilmiş sorğu üzrə müvafiq məlumatlar əldə edilmədikdə, qanunvericiliyə uyğun olaraq, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinə qoyulmuş yaş məhdudiyyətinə görə, bəzi fəaliyyət növlərinə qanunvericilikdə nəzərdə tutulmuş məhdudiyyətlərə görə imtina edilir və sistem tərəfindən bu barədə istifadəçinin ekranına müvafiq mesajlar göndərilir. İmtinaya əsas olmadıqda fərdi sahibkar qeydiyyata alınır və ona fiziki şəxsin sahibkarlıq uçotu haqqında şəhadətnamə verilir.

**AYTƏN**

# Dövlət idarəçiliyində peşəkar kadr siyasəti önəmli rol oynayır

*Vergilər Nazirliyinin əsas fəaliyyət istiqamətləri üzrə vəzifələrinin daha səmərəli icra olunması üçün dövlət vergi orqanlarında kadr potensialının gücləndirilməsi və ondan effektiv istifadə İnsan resursları idarəsinin qarşısında duran başlıca məqsədlərdəndir. Dövlət vergi orqanlarına işə qəbul məsələsinə Vergilər Nazirliyinin rəhbərliyi tərəfindən xüsusi önəm verilir, bu baxımdan, gələcək peşəkar vergi işçilərinin müəyyən olunması ən aktual məsələlərdəndir.*

***Savadlı və bacarıqlı gənclər vergi orqanlarında işləmək şansı əldə edir***

Vergi orqanlarında vakant yerlər üçün keçirilən işə qəbul prosesində ən savadlı və bacarıqlı gənclər müsabiqənin qalibi elan olunur. Ötən ilin oktyabrında keçirilən müsabiqədə uğur qazanaraq ehtiyat kadrlar siyahısına daxil edilmiş 164 nəfərdən 56 nəfər göstərilən dövr ərzində dövlət vergi orqanlarında olan müvafiq vakant vəzifələrə stajçı qismində təyin edilmişlər. Yerli idarələrin kadr potensialının artırılması üçün təyinatlar əsasən ərazi vergi orqanları üzrə aparılmışdır. Dövlət vergi orqanlarına stajçı kimi işə qəbul edilən əməkdaşların iş mühitinə daha tez adaptasiyası, onların fəaliyyətinin istiqamətləndirilməsinin və işinə nəzarətin səmərəli təşkili məqsədilə İnsan resursları idarəsi tərəfindən «Kuratorlar üçün təlim» mövzusunda interaktiv qaydada 4 təlim keçilmişdir. Təlimlərə ümumilikdə 98 nəfər dövlət vergi orqanı əməkdaşı iştirakçı qismində cəlb olunmuşdur. Qeyd edilən təlimlərin 2015-ci ilin ikinci yarımilliyi ərzində də davam etdirilməsi nəzərdə tutulur.

Vergi işçilərinin bilik və bacarıqlarının mütəmadi olaraq artırılması və müvafiq sahələrdə baş verən yeniliklərə uyğunlaşdırılması məqsədilə 2015-ci ilin ilk yarımilliyi ərzində 4 ilkin hazırlıq kursu üzrə 93 nəfər, 4 ixtisasartırma kursu üzrə 256 nəfər (221 nəfər distant formada iş yerində), 17 qısamüddətli təlim üzrə 338 nəfər olmaqla ümumilikdə 687 nəfər tədris prosesinə dinləyici qismində cəlb olunmuşdur.

***Rəhbər vəzifələrə xüsusi müsabiqələr keçirilir***

Rəhbər vəzifələri tutan şəxslərin potensialının artırılması və bu vəzifələrə kadrların xüsusi həssaslıqla seçilməsi və hazırlanması məqsədi ilə bir sıra yeniliklər də edilmişdir. «Dövlət vergi orqanlarında orta menecer vəzifələrinin tutulması üçün keçirilən müsabihə Qaydaları»nın layihəsi hazırlanmış və təsdiq edilmişdir. Qaydaların əsas məqsədi Vergilər Nazirliyinin daxili kadr potensialı hesabına rəqabətlilik, müsabiqəlilik, obyektivlik və şəffaflıq əsasında dövlət vergi orqanlarında orta menecer vəzifələrinin tutulmasının təmin edilməsidir. Qeyd edilən məqsəd üçün sözügedən Qaydalar namizədlərin bilik səviyyəsini, peşə hazırlığını, ümumi dünyagörüşünü, vakant vəzifə üçün zəruri olan digər keyfiyyətlərini yoxlamaqla onların müvafiq vəzifələrə yararlılığının aşkar edilməsi məqsədilə müsabihələrin keçirilməsi ilə bağlı prosedurları tənzimləyir.

Qaydalar təsdiq olunduqdan sonra Vergilər Nazirliyi yanında departamentlərdə və ərazi vergilər orqanlarında ümumilikdə 27 orta menecer vəzifəsi üzrə vakant yerlərə müsahibə elan edilmişdir. Müsahibələrdə 40 nəfər əməkdaş iştirak etmiş və Müsahibə Komissiyasının təqdimatı əsasında 26 nəfər vergilər nazirinin əmri ilə yuxarı vəzifələrə irəli çəkilmişdir.

***Qabaqcıl beynəlxalq təcrübə öyrənilir və tətbiq olunur***

Avropa İttifaqının «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikasının Vergilər Nazirliyinə dəstək» Tvinninq layihəsi uğurla icra olunmaqdadır. Layihə çərçivəsində üç mühüm nəticənin əldə edilməsi gözlənilir: nazirliyin insan resurslarının inkişafı üzrə yeni strategiyanın və fəaliyyət planının hazırlanması; insan resurslarının inkişafı sahəsi üzrə qanunvericiliyin yeni strategiyaya uyğun olaraq təkmilləşdirilməsi; insan resurslarının inkişafı üzrə dayanıqlı tədris və təlim sisteminin yaradılması və tətbiqi.

Layihənin məqsədləri üçün 2015-ci ilin birinci yarımilliyi ərzində Fransa Respublikasını və İspaniya Krallığını təmsil edən 9 ekspert missiyası (6 ispan, 3 fransız olmaqla) ölkəmizə səfər etmiş, cari ilin 2-11 may tarixlərində nazirliyin nümayəndə heyəti İspaniya Krallığının paytaxtı Madrid şəhərinə ezamiyyətə getmişdir. Səfər çərçivəsində, layihənin işçi planına uyğun olaraq, İspaniya və Fransanın vergi administrasiyalarında insan resurslarının idarə edilməsi sahəsində qabaqcıl təcrübə öyrənilmişdir.

*2015-ci ilin ilk yarımilliyi ərzində 4 ilkin hazırlıq kursu üzrə 93 nəfər, 4 ixtisasartırma kursu üzrə 256 nəfər (221 nəfər distant formada iş yerində), 17 qısamüddətli təlim üzrə 338 nəfər olmaqla ümumilikdə 687 nəfər tədris prosesinə dinləyici qismində cəlb olunmuşdur*

***«Vergi işçisinin etik davranış Kodeksi»nin tələblərinə riayət edilməsi***

Dövlət vergi orqanı əməkdaşlarının etik davranış qaydaları üzrə maarifləndirilməsinin aparılması məqsədilə İnsan resursları idarəsinin əməkdaşları tərəfindən 2015-ci ilin birinci yarımilliyində vergi işçiləri üçün «Etik davranış» mövzusunda təlimlər keçirilmişdir. Təlimlərdə qaydaların əhəmiyyəti və mahiyyəti, qarşıya çıxan etik dilemmalar və onların həlli yolları, dövlət vergi əməkdaşları tərəfindən ən çox yol verilən etik pozuntular və onların qarşısının alınması barədə iştirakçılara məlumat verilmişdir.

Dövlət vergi orqanı əməkdaşlarının «Vergi işçisinin etik davranış Kodeksi»nin tələblərini pozması ilə bağlı vətəndaşlardan və vergi ödəyicilərindən daxil olmuş 32 şikayət araşdırılmış, şikayətçi və barəsində şikayət verilən əməkdaşdan müvafiq izahatlar alınmışdır. Regionlardan daxil olmuş şikayətlərlə bağlı İnsan resursları idarəsinin əməkdaşları ölkənin 6 rayonuna ezam edilərək yerindəcə araşdırmalar aparmışlar. Araşdırma nəticəsində şikayətlərdən 29-u əsassız hesab edilmiş, 3-ü isə hazırda icraatdadır.

Etik davranış qaydalarının pozulması üzrə daxil olan şikayətlər əsasən vergi orqanı əməkdaşlarının vergi ödəyiciləri və vergilərin ödənilməsi ilə bağlı olmuşdur. İdarə tərəfindən şikayətlər araşdırılarkən barəsində şikayət daxil olmuş əməkdaşların hər biri ilə fərdi söhbət aparılmış, şikayətlərin qarşısının alınması və əməkdaşların daha ehtiyatlı davranması məqsədilə «Vergi işçisinin etik davranış kodeksi»nin tələblərinə ciddi əməl etmələri barədə onlara müvafiq tövsiyələr verilmiş, şikayət olunan əməkdaşların bəzilərinə şifahi xəbərdarlıq edilmişdir.

İlin ilk 6 ayı ərzində dövlət vergi orqanları tərəfindən ümumilikdə 351 nəfər əməkdaş barəsində intizam tənbeh tədbiri tətbiq edilmişdir ki, bunlardan 87-si vergilər naziri və vergilər nazirinin birinci müavini, 264-ü isə yerli vergi orqanlarının rəisləri tərəfindən verilmişdir. Onlardan 50 nəfərə töhmət, 23 nəfərə şiddətli töhmət verilmiş, 4 nəfərin xüsusi rütbəsi, 5 nəfərin isə vəzifəsi aşağı salınmış, digər 5 nəfərin isə xidmətinə xitam verilmişdir.

***Peşəkar vergi əməkdaşları diqqətdən kənarda qalmır***

2015-ci ilin ilk yarımilliyi ərzində 501 nəfər əməkdaş barəsində həvəsləndirmə tədbiri görülmüşdür. Belə ki, 3 nəfərə Fəxri fərman verilmiş, 173 nəfərə təşəkkür elan edilmiş, 34 nəfərə vaxtından əvvəl xüsusi rütbə, 27 nəfərə isə tutduğu pillədən bir pillə yuxarı rütbə təyin olunmuş, 236 nəfərin intizam tənbeh tədbiri vaxtından əvvəl üzərindən götürülmüş, 28 nəfərə pul mükafatı verilmişdir.

**Rəşad SADIQOV**

**xarici mətbuat səhifələrində**

## İtalyan jurnalist Azərbaycanı Qafqazın Dubayı adlandırıb

*İtaliyanın «İl Giornale» qəzetinin saytında Azərbaycanın sürətli inkişafı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, ölkəmizin İtaliya ilə əlaqələri və bir çox digər məqamların təhlil olunduğu yazı yerləşdirilib.*

Müəllif əvvəlcə Dağlıq Qarabağ münaqişəsindən bəhs edib və bu problemlə bağlı azərbaycanlı zabitlərin, məcburi köçkünlərin fikirlərinə yer verib. Məqalədə vurğulanıb ki, Azərbaycan 20 il bundan əvvəllə müqayisədə daha güclüdür, bu ölkənin iqtisadi və hərbi qüdrəti artmaqdadır. Cəbhə xəttində torpaqlarını qoruyan azərbaycanlı əsgərlər ən müasir silahlarla təchiz ediliblər. Uzun illər davam edən Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın qanayan yarasıdır və on minlərlə insanın həyatına son qoyub. Müəllif Azərbaycanın paytaxtı Bakını Qafqazın Dubayı adlandırıb və vurğulayır ki, bu şəhərdə müasir elementlərlə yanaşı, tarixin izləri də özünü göstərir.




Yazıda İtaliyanın Azərbaycandakı səfiri Ciampaolo Kutillonun fikirləri də yer alıb: «Azərbaycan ilə İtaliya arasında əlaqələr strateji əhəmiyyət daşıyır. Xüsusilə enerji sahəsində əməkdaşlıq müsbət nəticələr verməkdədir».

Məqalədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu günlərdə İtaliyaya səfəri, keçirdiyi görüşlər barədə də məlumatlar yer alıb.

## Azərbaycan bir sıra göstəricilərə görə Avropa İttifaqı dövlətlərini üstələyir

Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında çıxış edən əmək və əhalinin sosial müdafiəsi naziri Səlim Müslümov bildirib ki, ölkəmizdə sosial xidmət sisteminin mövcud standartlara uyğun yenidən qurulması və bu sahədə ciddi islahatların aparılması vacib məsələlərdən biridir. «Hazırda nazirliyin yerli orqanları tərəfindən əlilliyi olan şəxslərə həm stasionar, həm də səyyar sosial xidmətlər göstərilir. Belə ki, 9 sosial xidmət müəssisəsində ümumilikdə 1182 nəfər tam dövlət təminatında olmaqla stasionar sosial xidmətlə əhatə edilib və son 6 ay ərzində onlardan 32 nəfəri ailələrinə qayıdıb. 12853 nəfərə isə nazirliyin 1277 nəfər sosial işçisi tərəfindən səyyar qaydada, yəni evlərində sosial məişət xidməti göstərilib. Fikrimizcə, səyyar sosial xidmət göstərilməsi sosial sifariş kimi özəl sektora verilməli, sosial müdafiə mərkəzləri sifarişçi kimi monitorinq funksiyasını həyata keçirməli, sosial işçi ştatları isə ləğv edilməlidir».

Ölkədə işsizliyin səviyyəsinə toxunan S.Müslümov bu sahədə nəzərəçarpacaq irəliləyişin olduğunu qeyd edib: «Bu gün Azərbaycan gənclər arasında aşağı işsizlik həddi olan dövlətlərdən biridir. Ölkəmizdə 15-24 yaş arasındakı gənclər üzrə işsizlik səviyyəsi 13,5 faiz olduğu halda, Avropa İttifaqında bu, 20,6 faizdir. Bunulla belə, gənclərin məşğulluğunun artırılması üzrə xüsusi layihələrin hazırlanması, eləcə də onlara əmək bazarının tələblərinə uyğun çevik peşə təhsili imkanlarının yaradılması üçün aktiv məşğulluq tədbirlərinin artırılması zəruridir. Bunu nəzərə alaraq, ölkəmizdə ayrıca işsizlik sığortası sisteminin qurulmasına ehtiyac var».

Əmək müqavilələrinin elektron qeydiyyatı sistemindən danışan nazir bildirib ki, MDB məkanında ilk dəfə olaraq Azərbaycanda qurulmuş bu sistem əmək hüquqlarının təminatına dövlət nəzarətinin səmərəli təşkilinə imkan yaradıb. 2015-ci ilin 1 iyul tarixinə həmin sistemə 55 min işəgötürən tərəfindən 1 milyon 262 min aktiv işçi üzrə 2 milyon 360 min əmək müqaviləsi bildirişi daxil edilib. Sistemdəki dəyişikliklər ölkənin əmək bazarındakı prosesləri izləməyə və müvafiq təkliflər hazırlamağa imkan verir. Cari ilin 6 ayı ərzində nazirliyə xarici vətəndaşlara iş icazəsinə rəy verilməsi üçün Dövlət Miqrasiya Xidmətindən 9357 müraciət daxil olub ki, bu da ötən ilin 6 ayına nisbətən 11,8 faiz çoxdur.

Nazir qeyd edib ki, ölkə başçısının ünvanlı sosial yardımların və əlilliyin təyinatında mövcud olan mənfi halların təcili aradan qaldırılması və şəffaflığın təmin olunması məqsədilə nazirliyin mərkəzləşdirilmiş informasiya sistemində ünvanlı dövlət sosial yardımı üzrə Vahid Elektron Müraciət və Təyinat Alt Sisteminin (VEMTAS) yaradılması üçün müvafiq texniki infrastrukturun hazırlanması işləri yekunlaşdırılıb. «Bu sistemin tətbiqi ölkə vətəndaşlarına ailə üzvlərindən birinə verilən notarial və vəkalətnamədən başqa hər hansı sənəd toplamadan və yerli orqanlara getmədən istənilən internet bağlantısı olan nöqtədən ünvanlı sosial yardım üçün nazirliyə elektron müraciət etmək və 15 gün ərzində mobil telefonuna göndəriləcək SMS vasitəsilə təyinat barədə məlumat almaq imkanı yaradacaqdır. Dünya Bankının mütəxəssislərinin fikrincə, belə bir sistemin qurulması bütün ölkələr üçün örnək ola bilər».

**A.NƏBİYEVA**

# Vergilər Nazirliyi beynəlxalq əməkdaşlığın genişləndirilməsinə böyük önəm verir



*Vergilər Nazirliyinin Beynəlxalq münasibətlər idarəsinin rəisi, 1-ci dərəcəli müfəttiş Orxan Musayevin "Vergilər" qəzetinə müsahibəsi*

***- Orxan müəllim, 2015-ci ilin ötən dövründə Vergilər Nazirliyi tərəfindən beynəlxalq əməkdaşlıq sahəsində görülən işlər barədə məlumat verməyinizi xahiş edirik.***

- «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası ilə əlaqədar olaraq Vergilər Nazirliyi tərəfindən qəbul edilən 2013-2020-ci illər üçün Strateji Planda beynəlxalq və regional təşkilatlar, eləcə də digər dövlətlərin vergi orqanları ilə əməkdaşlığın genişləndirilməsi nəzərdə tutulmuşdur.

Beynəlxalq əməkdaşlığın gücləndirilməsi, hər zaman olduğu kimi, 2015-ci ildə də əsas prioritetlərdən biridir. Azərbaycan Respublikası Vergilər Nazirliyi ikitərəfli və çoxtərəfli əməkdaşlıq mexanizmi çərçivəsində həm bir sıra mötəbər regional və beynəlxalq təşkilatlarla, həm də xarici ölkələrin vergi orqanları ilə əməkdaşlığı genişləndirir. Nazirliyin nümayəndələri Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA), İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD), Avropa Kommersiya Qeydiyyatçıları Forumunun (ECRF) və digər regional və beynəlxalq təşkilatların tədbirlərində mütəmadi iştirak edirlər. Beynəlxalq təşkilatlarla mövcud əməkdaşlığın ikitərəfli formatda davam etdirilməsi məqsədilə Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi, Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GİZ), Avropa İttifaqı, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və Asiya İnkişaf Bankı ilə danışıqlar aparılmışdır.

Sözsüz ki, ölkəmizdə tez-tez beynəlxalq tədbirlərin keçirilməsi bu münasibətlərin daha da genişlənməsinə şərait yaradır. 2012-ci ildən etibarən Vergi orqanları əməkdaşlarının peşə bayramı ərəfəsində keçirilən vergi forumları beynəlxalq vergi münasibətlərinə dair əməkdaşlıq məsələlərinin müzakirə edildiyi nüfuzlu bir platformaya çevrilmişdir. Cari ilin 9-10 fevral tarixlərində keçirilən 4-cü Vergi Forumunda İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatından, Amerikadaxili Vergi Administrasiyaları Mərkəzindən (CIAT), Beynəlxalq Vergi və İnvestisiya Mərkəzindən (International Tax and Investment Center - ITIC) nümayəndələr, eləcə də Türkiyə, Rusiya, Qazaxıstan və Litvanın vergi administrasiyalarından ali qonaqlar iştirak etmişlər.

***- IOTA ilə əməkdaşlıq Vergilər Nazirliyi üçün xüsusi önəm daşıyır. Azərbaycan artıq üçüncü dəfədir ki, bu təşkilatın İcraiyyə Şurasına üzv seçilir. Bu üzvlük ölkəmizə gələcək perspektivdə nə vəd edir?***

- Niderland Krallığının Rotterdam şəhərində baş tutan 19-cu Baş Assambleyada keçirilən səsvermənin nəticələri Vergilər Nazirliyi ilə IOTA, eləcə də təşkilatın üzv dövlətləri arasında daha da intensivləşən əməkdaşlıqdan xəbər verir.

Vergilər Nazirliyi 2013-cü ildən bəri artıq üçüncü dəfədir ki, IOTA-nın əsas qərarverici və idarəetmə orqanı olan İcraiyyə Şurasına üzv seçilib. Qeyd edim ki, MDB məkanında ilk olaraq Azərbaycanın seçildiyi İcraiyyə Şurasının təşkilatın fəaliyyətində əhəmiyyətli rol oynayan müstəsna səlahiyyətləri vardır. Vergilər Nazirliyinin burada təmsil olunması təşkilatın fəaliyyətində yaxından iştirak etməyimizə şərait yaradır. Artıq ardıcıl olaraq üçüncü dəfə İcraiyyə Şurasına üzv seçilməyimiz heç də gözlənilməz olmadı. Çünki Vergilər Nazirliyi IOTA-nın ən fəal üzvlərindən biridir və təşkilatın işində səmərəli və fəal iştirakına görə təşkilata üzv olan digər ölkələr arasında da özünə layiqli yer qazanmışdır.

Vergilər Nazirliyinin nümayəndələri müntəzəm olaraq IOTA-nın müxtəlif formatda keçirilən tədbirlərində, forumlarında iştirak edir və bu sahədə təcrübə mübadiləsi aparırlar. Nəzərinizə çatdırmaq istərdim ki, məhz həmin forumlardan biri - Vergi üzrə Peşəkar Təlim və İnkişaf Forumu cari ilin 9-11 sentyabr tarixlərində Bakı şəhəri və Şamaxı rayonunda keçiriləcəkdir. Qeyd etmək lazımdır ki, forumda IOTA-nın 30 üzv dövlətindən 50-yə yaxın nümayəndənin iştirakı gözlənilir.

***- Vergi sahəsində beynəlxalq təşkilatlarla əməkdaşlığın səviyyəsini necə qiymətləndirərdiniz?***

- Vergilər Nazirliyinin çoxşaxəli əməkdaşlıq spektrinə həm vergi orqanları, həm də qeydiyyat orqanları daxildir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı, belə demək mümkünsə, bizim ən mühüm tərəfdaşlarımızdandır. OECD-nin Katibliyinin tərkibinə daxil olan Vergi Siyasəti və İnzibatçılığı Mərkəzi (Center for Tax Policy and Administration CTPA) ilə əməkdaşlığın inkişaf etdirilməsi Vergilər Nazirliyi üçün prioritet istiqamətlərdən biridir.

OECD-nin Ankara şəhərində yerləşən Çoxmilli Vergi Mərkəzində, eləcə də Vyana və Budapeştdəki Vergi mərkəzlərində 2015-ci ilin I yarımilində 6 müxtəlif mövzuya dair keçirilən seminarlarda Vergilər Nazirliyinin 7 əməkdaşı iştirak etmişdir. Bununla yanaşı, nazirliyin nümayəndələri OECD-nin Baş qərargahının yerləşdiyi Paris şəhərində keçirilən qlobal forumların, eləcə də vergi siyasəti və statistikası üzrə işçi qrupun iclaslarında iştirak edirlər.

MDB ölkələri ilə beynəlxalq vergi münasibətləri, əsasən, Birlik iştirakçısı olan dövlətlərin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurası və Vergi (maliyyə) təhqiqat orqanları rəhbərlərinin Koordinasiya Şurası ilə genişləndirilir.

Korporativ Qeydiyyatçılar Forumu (Corporate Registers Forum - CRF) və Avropa Kommersiya Qeydiyyatçılarının Forumu (European Commerce Registers Forum - ECRF) kimi qeydiyyat orqanları ilə əməkdaşlıq beynəlxalq vergi münasibətlərinin əsas prioritetlərindən biridir. Vergilər Nazirliyinin əməkdaşı cari ilin 3-5 iyun tarixlərində İspaniya Krallığının Madrid şəhərində keçirilən Avropa Kommersiya Qeydiyyatçıları Forumunun Baş Assambleyası və 18-ci illik konfransında iştirak etmişdir.

Amerikadaxili Vergi Administrasiyaları Mərkəzi (CIAT) ilə də əməkdaşlıq münasibətləri genişləndirilir. CIAT-ın icraçı katibi Marsio Verdi cari ilin 9-10 fevral tarixlərində Bakıda keçirilən IV Vergi Forumunda iştirak etmişdir. Məhz qeyd edilən təşkilatla Vergilər Nazirliyinin münasibətlərinin yüksək səviyyədə olduğunun təzahürü kimi, bu ilin 28 sentyabr-1 oktyabr tarixlərində İtaliyanın paytaxtı Roma şəhərində keçiriləcək texniki konfransa Vergilər Nazirliyinin nümayəndəsi də dəvət olunmuşdur.

İqtisadi Əməkdaşlıq Təşkilatı (ECO) ilə də əlaqələrimiz yüksələn xətlə inkişaf edir. Keçən ilin 6-7 noyabr tarixlərində Bakı şəhərində ECO-nun vergi orqanlarının nümayəndələri üçün «Vergi ödəyicilərinə xidmət» mövzusunda seminarı təşkil olunmuşdur. Seminarda 7 üzv ölkənin vergi administrasiyasının nümayəndələri iştirak etmiş, mövzu ilə bağlı müxtəlif təqdimatlar olunmuş, müzakirələr aparılmışdır.

24 sentyabr 2014-cü ildə İspaniyanın Maliyyə Nazirliyi və Fransanın Baş Vergi Direktoratının tərəfdaşı olduğu «İnsan resurslarının inkişafı sahəsində Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək» adlı Tvinninq layihəsinə başlanılmışdır. Layihənin birinci komponenti insan resurslarının inkişafı ilə bağlı uzunmüddətli strategiyanın hazırlanmasını, ikinci komponenti insan resurslarının idarə edilməsi üzrə nazirliyin mövcud normativ bazasının yeniləşdirilməsini, üçüncü komponenti isə tədris-təlim sisteminin modernləşdirilməsini nəzərdə tutur. Tvinninq layihəsinin işçi planına uyğun olaraq işçi seminarlarda iştirak etmək məqsədilə Fransa və İspaniyanın vergi orqanları nümayəndələri müntəzəm qaydada Azərbaycana səfər edirlər. Eləcə də Vergilər Nazirliyinin əməkdaşları layihə çərçivəsində təcrübə mübadiləsi məqsədilə həmin ölkələrə ezam olunurlar.

Bundan əlavə, Avropa İttifaqının TAIEX yardım alətindən istifadənin genişləndirilməsi məqsədilə 2015-ci ilin 13-15 aprel tarixlərində Vergilər Nazirliyində «Elektron ticarətin vergiyə cəlb edilməsi» və 5-7 may tarixlərində «Nağdsız ödənişlərin stimullaşdırılması» üzrə TAIEX ekspert missiyası təşkil edilmişdir.

***- Vergilər Nazirliyi ayrı-ayrı ölkələrlə qarşılıqlı əməkdaşlıq əlaqələrinin genişləndirilməsindən hansı səmərəni gözləyir?***

- Vergilər Nazirliyi ikitərəfli münasibətlərin maksimum reallaşdırılmasında maraqlı olduğu üçün Avropa İttifaqı, MDB, eləcə də Asiya və Cənub-Şərqi Asiya ölkələri ilə sıx əməkdaşlıq əlaqələri yaradır. Ümumiyyətlə qeyd etmək istərdim ki, beynəlxalq vergi münasibətlərində ikitərəfli əməkdaşlığın perspektivlərinin artması ölkəmizin xarici iqtisadi fəaliyyətinin iştirakçılarının sayının genişlənməsi ilə bağlıdır. Zənnimcə, dövlətlərin sıx əməkdaşlığının əsasını onların iqtisadi inkişafındakı oxşarlıq, texnoloji təkamüllər, milli iqtisadiyyatların inkişaf səviyyəsi təşkil edir. Bu baxımdan, Vergilər Nazirliyinin üzv olduğu təşkilatlara daxil olan qabaqcıl Avropa ölkələri ilə səmərəli əməkdaşlığı ildən-ilə inkişaf edir. Əminəm ki, ölkələr arasında vergilər sahəsində ikitərəfli əməkdaşlıq, eləcə də ən yaxşı təcrübələrin mübadiləsi davamlı inkişafa nail olmaq üçün çox əhəmiyyətlidir.

***- Vergilər Nazirliyi vergitutma sahəsində təcrübə mübadiləsinə böyük önəm verir. Qabaqcıl təcrübələrə malik olan dövlətlərin vergi orqanları əməkdaşları da ölkəmizə tez-tez səfərlər edirlər. Belə səfərlər zamanı onlar Azərbaycanın vergi sistemində daha çox hansı məsələlərlə maraqlanırlar?***

- Qeyd etdiyim kimi, təcrübə mübadiləsi davamlı inkişaf üçün çox önəmlidir. Biz modernləşmə xəttini əsas götürərək məqsədyönlü islahatlar aparmaq məqsədilə ən qabaqcıl beynəlxalq təcrübəni təhlil etməklə bərabər, onun tətbiqi imkanlarını da araşdırırıq. Bu məqsədlə Vergilər Nazirliyinin nümayəndələrinin qabaqcıl xarici ölkələrin vergi administrasiyalarına səfərləri təşkil olunur. Çin Xalq Respublikasının Maliyyə Nazirliyi, Sinqapur Daxili Gəlirlər Xidməti ilə aparılan uğurlu əməkdaşlığın nəticəsi olaraq, Vergilər Nazirliyinin nümayəndələri beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə həmin ölkələrə ezam olunmuşlar.

Qeyd etmək lazımdır ki, üzv olduğumuz təşkilatlar çərçivəsində keçirilən seminarlarda, forumlarda xarici vergi administrasiyalarının nümayəndələri Azərbaycan Respublikası Vergilər Nazirliyinin vergi qanunvericiliyinin və inzibatçılığının tətbiqi ilə əlaqədar fəaliyyəti, vergi ödəyicilərinə göstərilən xidmətlər, xüsusən də elektron xidmətlərlə daha çox maraqlanırlar. Xarici həmkarlarımız Vergilər Nazirliyinin mütərəqqi texnologiyalar tətbiq edən, vergi ödəyiciləri ilə əməkdaşlıq formatında münasibətlərin qurulmasına, vergi mədəniyyətinin formalaşdırılmasına innovativ yanaşan bir qurum olduğundan xəbərdardırlar. Ölkəmizə səfər etməkdə məqsədləri də qeyd edilən sahələrdə təcrübə mübadiləsi aparmaqdır. Keçən ilin 8-10 dekabr tarixlərində Moldova Baş Dövlət Vergi Müfəttişliyinin nümayəndə heyəti Bakıya gəlmişdi. Səfərdə məqsəd vergi nəzarəti sahəsində qanunvericilik, vergi nəzarətində avtomatlaşdırılmış vergi informasiya sistemi, vergitutma sahəsində risk meyarlarının müəyyən edilməsi və istifadəsi, eləcə də nəzarət-kassa aparatlarının tətbiqi məsələləri üzrə təcrübə mübadiləsi aparmaq idi.

Son 6 ay ərzində Vergilər Nazirliyi Avropa Komissiyasının TAIEX proqramının dəstəyi ilə «Elektron ticarətin vergiyə cəlb olunması» və «Nağdsız ödənişlərin stimullaşdırılması» mövzularında beynəlxalq ekspertin cəlb olunması ilə interaktiv seminarlar təşkil etmiş və hər mövzu üzrə praktiki tövsiyələri əks etdirən hesabatlar hazırlamışdır. Avropa Komissiyasının dəstəyi ilə eyni mövzular üzrə biliklərin təkmilləşdirilməsi məqsədilə Böyük Britaniyanın Vergi və Gömrük Administrasiyasına nazirlik əməkdaşlarının işçi səfəri gözlənilir.

Eyni zamanda, növbəti aylarda TAIEX yardım aləti çərçivəsində Avropa Komissiyası tərəfindən qəbul olunmuş «Elektron Qaimələrin Tətbiqi» və «Sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki şəxslərin mülkiyyətində olan daşınmaz əmlakın (yaşayış və qeyri-yaşayış sahələrinin) təqdim edilməsinin vergiyə cəlb edilməsi xüsusiyyətləri» mövzularında ekspert missiyası layihələrinin keçirilməsi gözlənilir.

Vergilər Nazirliyinin «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan»ın əsas məqsədlərindən birinin beynəlxalq təcrübəni təhlil edərək vergi qanunvericiliyinin Avropa İttifaqının direktivlərinə uyğunlaşdırılması olduğunu, eyni zamanda Aİ ilə texniki əməkdaşlıq aləti üzrə əməkdaşlığın prioritet istiqamətlərdən birinə çevrildiyini nəzərə alaraq, 2016-cı il üçün Fəaliyyət Proqramında vergi sisteminin inkişafı və təkmilləşdirilməsinin əsas istiqamətlərindən biri kimi göstərilməsi təklif olunub.

Qeyd edim ki, İsveçrənin İqtisadi məsələlər üzrə Katibliyi ilə Vergilər Nazirliyi arasında qarşılıqlı layihələrdə iştirak üzrə razılıq əldə olunmuşdur. Bundan başqa, Vergilər Nazirliyi və ABŞ Dövlət Departamentinin Təhsil və Mədəniyyət Məsələləri üzrə Bürosu ilə əməkdaşlığın nəticəsi olaraq, həmin Departament tərəfindən maliyyələşdirilən Peşəkar İxtisasartırma Proqramında Vergilər Nazirliyinin əməkdaşının iştirakı təmin edilmişdir. Məlumat üçün qeyd edim ki, CEF (Centre of Excellence Finance) - Maliyyədə Mükəmməllik Mərkəzi ilə Vergilər Nazirliyi arasında əməkdaşlığın perspektiv istiqamətləri müzakirə edilməkdədir. Bununla yanaşı, idarə tərəfindən nazirliyin müvafiq strukturlarının sorğuları əsasında və «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün Strateji Plan»da nəzərdə tutulan mövzularla bağlı beynəlxalq təcrübə öyrənilərək müvafiq icmallar hazırlanır.

***- İkiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması istiqamətində cari ildə hansı müqavilələr imzalanıb və ya imzalanması nəzərdə tutulur?***

- İkiqat vergitutmanın aradan qaldırılması haqqında sazişlərin əsas məqsədi mal və xidmətlərin sərbəst beynəlxalq mübadiləsinə maneçilik törədən vergi maneələrinin aradan qaldırılması yolu ilə beynəlxalq ticarət və sərmayə qoyuluşunu təşviq etməkdir. Beynəlxalq vergi müqavilələrinin mövcudluğu vergi ödəyicilərinə ayrı-seçkiliyə yol verilməyəcəyinə təminat verir, dövlətlər üçün isə ziddiyyətli məsələlər üzrə birbaşa qarşılıqlı məsləhətləşmələrin aparılmasına və vergi məlumatlarının mübadiləsinə imkan yaradır.

Azərbaycan Respublikasının ikiqat vergitutmanın aradan qaldırılması haqqında bağladığı müqavilələr şəbəkəsi genişlənməkdədir və Vergilər Nazirliyinin mövcud müqavilələr çərçivəsində digər dövlətlərin müvafiq orqanları ilə əməkdaşlığı uğurla davam etdirilir. Hazırda 48 ölkə ilə ikiqat vergitutmanın aradan qaldırılması haqqında beynəlxalq müqavilə imzalanmış və onların 45-i qüvvəyə minmişdir. Küveyt, İordaniya və İspaniya ilə imzalanmış müqavilələr həmin ölkələr tərəfindən dövlətdaxili prosedurlar başa çatdıqdan sonra qüvvəyə minəcəkdir. Bunlardan əlavə, Malta, İsrail, Slovakiya, İsveç, İrlandiya, Sinqapur, Danimarka, Hindistan, San-Marino və Mərakeşlə bu cür müqavilələrin layihələri, eləcə də Qazaxıstanla 1996-cı ildə imzalanmış müqaviləyə əlavə və dəyişikliklərin edilməsi üzrə Protokolun layihəsi üzrə razılıq əldə edilmişdir. Adı çəkilən dövlətlərdən əlavə, daha yeddi dövlətlə müvafiq layihələr üzərində işlər davam etdirilir və 15-dən çox ölkə ilə danışıqlara başlanması üçün model layihələr mübadilə edilmişdir.

Onu da qeyd etmək lazımdır ki, ikiqat vergitutmanın aradan qaldırılması haqqında müqavilələrdən başqa, vergi məlumatlarının mübadiləsi haqqında müqavilələr də mövcuddur. Məlumat mübadiləsi haqqında müxtəlif dövlətlərlə bağlanmış ikitərəfli müqavilələrdən başqa, Azərbaycan Respublikası 2003-cü ildən Avropa Şurası və İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) «Vergi məsələləri üzrə qarşılıqlı inzibati yardım haqqında» birgə Konvensiyasına qoşulmuş, 2014-cü ilin may ayında isə həmin Konvensiyaya dəyişikliklər edilməsi haqqında Protokolu imzalamışdır. Hazırda Vergilər Nazirliyi Azərbaycan Respublikasının tərəf olduğu məlumat mübadiləsi haqqında ikitərəfli və çoxtərəfli müqavilələr əsasında 101 dövlətlə vergi məlumatlarının mübadilə etmək imkanına malikdir.

Bundan əlavə, Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında maliyyə məlumatlarının qarşılıqlı mübadiləsinə imkan verəcək Vergi tələblərinin yerinə yetirilməsi üzrə beynəlxalq qaydalara əməl olunmasının yaxşılaşdırılması və Xarici Hesablar üzrə Vergi Əməletməsi Aktı (Foreign Account Tax Compliance Act - FATCA) tələblərinin həyata keçirilməsi barədə hökumətlərarası Sazişin imzalanmaya hazırlanması ilə bağlı işlər başa çatmaq üzrədir.

**Müsahibəni hazırladı: Rəşad SADIQOV**



# Ölkəmizə xarici sərmayə qoyuluşlarının həcmi artıb

*Azərbaycanda yaradılmış əlverişli biznes mühiti 2015-ci ilin birinci yarısında xarici investorların yatırdığı sərmayələrin həcminin artmasına səbəb olub. Ötən dövr ərzində ölkə iqtisadiyyatına 12,7 milyard manat sərmayə qoyulub ki, onun da böyük hissəsini xarici investisiyalar təşkil edir və bu, ötən ilin müvafiq dövrü ilə müqayisədə 20%-dən çoxdur. Sərmayələr sənaye, energetika, mədənçıxarma, istehsal və emal, nəqliyyat, tikinti, rabitə, turizm sahələrinin inkişafına yönəldilib.*

Nazirlər Kabinetinin 2015-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasındakı çıxışında Prezident İlham Əliyev bildirib ki, xarici sərmayələrin həcminin artması iqtisadiyyatımızın açıq və şəffaf olmasının göstəricisidir: « Bu, müsbət haldır, çünki yenə də göstərir ki, Azərbaycan investisiyalar üçün çox cəlbedici ölkədir və xarici sərmayə burada lazımi səviyyədə qorunur. Xarici investisiyaların həcminin və əcnəbi sərmayəçilərin ölkəmizə marağının artmasına davamlı sabitlik və dinamik inkişaf amili də mühüm təsir göstərib».

Dövlət başçısı ölkəmizdə azad sahibkarlığın və biznesin inkişafı üçün əlavə tədbirlərin görüləcəyini də diqqətə çatdırıb. Məqsəd özəl sektorun iqtisadiyyata sərmayə qoyuluşunun artması nəticəsində regionların inkişafını daha da stimullaşdırmaqdır. Əlverişli investisiya mühitinin formalaşdırılması Azərbaycanın bütün dünyada etibarlı iqtisadi tərəfdaş kimi tanınmasını, qlobal maliyyə böhranı şəraitində respublikaya xarici sərmayə qoyuluşlarının artımını təmin edir. Ölkəmizin adambaşına düşən birbaşa xarici investisiyaların həcminə görə dünyanın qabaqcıl dövlətləri sırasında olması da bunu təsdiqləyir.

Hazırda respublikamızın iqtisadiyyatına yönəldilən xarici sərmayələrdə əsas yeri Avropa ölkələri tutur. Böyük Britaniya, Norveç, Türkiyə, Fransa ilk sırada dayanır, Çin, Rusiya və Yaponiya investorlarının payı da son dövrlərdə yüksəlib. Beynəlxalq maliyyə institutlarından isə ən böyük investisiyalar Dünya Bankı tərəfindən qoyulub. Asiya İnkişaf Bankı və Avropa Yenidənqurma və İnkişaf Bankı da ötən dövrdə Azərbaycanda layihələrin reallaşdırılmasına iri həcmdə investisiya yatırıblar. Ümumilikdə,investisiyaların 90%-i iqtisadiyyatda yeni istehsal sahələrinin yaradılmasına və biznesin inkişafına yönəldilib.

Ölkəmizdə həyata keçirilən səmərəli vergi siyasəti də xarici sərmayələrin axınına geniş şərait yaradıb. Respublikamızın bir sıra beynəlxalq müqavilələrə qoşulması, investisiyaların təşviqi və qorunması haqqında sazişlərin qüvvəyə minməsi, gəlirlərə və əmlaka görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması xarici investisiyaların Azərbaycan iqtisadiyyatına axınını stimullaşdırıb. Son illərdə ölkəmizdə hüquqi və fiziki şəxslərin dövlət qeydiyyatının elektron qaydada həyata keçirilməsi də biznes mühitinə müsbət təsir göstərib.

Hazırda Azərbaycan hökuməti iqtisadiyyata xarici sərmayə qoyuluşlarının daha da artırılması, xüsusilə də regionlardakı qeyri-neft sahələrinə investisiyaların yönəldilməsi məqsədilə strateji plan hazırlayır. İqtisadiyyat və sənaye nazirinin müavini Sevinc Həsənova bildirib ki, rayonlarda zavod, fabrik və müəssisələrə xarici investisiyaların cəlb olunması üçün müxtəlif stimullaşdırıcı addımların atılması nəzərdə tutulur. Bu məqsədlə müvafiq iqtisadi qurumların, Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının, ölkəmizdə fəaliyyət göstərən şirkətlərin təklifləri əsasında sərmayələrin təşviqinə dair layihə hazırlanacaq. Layihənin başlıca istiqamətləri sərməyə axınını stimullaşdırmaq üçün daxili bazarın qorunması, idxal-ixrac əməliyyatlarının asanlaşdırılması və dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilən malların və nəqliyyat vasitələrinin yoxlanılmasında lbir pəncərə» prinsipinin təkmilləşdirilməsindən ibarətdir.

**Elbrus CƏFƏRLİ**

# Nağdsız ödəniş sistemi günü-gündən populyarlıq qazanır

*Vergidən yayınma hallarının qarşısını almaq məqsədilə Vergilər Nazirliyi Mərkəzi Bank və kommersiya bankları ilə birlikdə ölkənin ticarət və xidmət sektorunda ödəmələrin nağdsız qaydada aparılması üçün müvafiq infrastrukturun qurulması istiqamətində ciddi tədbirlər həyata keçirir. Bu məsələ ilə bağlı nazirlikdə yaradılmış Qərargah tərəfindən POS-terminal qurașdırılmalı olan obyektlərin siyahısı müəyyənləşdirilir, bu məqsədlə həyata keçiriləcək proseslərin xəritəsi tərtib olunur və banklarla razılaşdırılır. Qərargah üzvləri ilə yanaşı, yerli vergi orqanlarının bu sahə üzrə məsul şəxsləri müəyyən edilmiş, əlavə işçi qüvvəsi cəlb olunmuşdur.*



Vergilər Nazirliyinin Mərkəzi Bank və digər təşkilatlarla əlaqəli fəaliyyətinin nəticəsidir ki, POS-terminalların sayının artması ilə yanaşı, onlardan istifadə də genişlənməyə başlamışdır. «2014-cü il ərzində azərbaycanlıların xaricdə POS-terminal vasitəsi ilə apardıqları nağdsız ödəmə əməliyyatlarının həcmi iki dəfədən çox artmış vətəndaşlarımızın böyük bir hissəsi daxili bazarda nağdsız ödənişlərə üstünlük verməyə başlamışdır. Məhz buna görə də Azərbaycan hökuməti 2015-ci il ərzində nağd əməliyyat aparan bütün obyektlərdə POS-terminallar quraşdırmağı planlaşdırır.

Ölkəmizdə nağdsız ödəniş sisteminə keçidlə əlaqədar ödəniş kartlarının sayında da əhəmiyyətli dərəcədə artım olmuş və bu göstərici 6 milyon civarında müəyyənləşmişdir. Azərbaycan Mərkəzi Bankının məlumatlarına görə, bu il iyunun 1-i tarixinə ölkə ərazisindəki ticarət və xidmət obyektlərində 78,324 min ədəd POS-terminal quraşdırılıb ki, bunun da 49,815 mini paytaxtda, 28,509 mini regionlarda quraşdırılıb. Pərakəndə ticarət obyektlərində 76,892 min ədəd və ya bütövlükdə ölkə üzrə 98,2 faiz POS-terminal fəaliyyət göstərir.

Bakıda keçirilən birinci Avropa Oyunları zamanı ölkəmizə gələn çoxlu sayda idman heyətləri və azarkeşlər gəldiyindən, müxtəlif ticarət, əyləncə, iaşə və s. obyektlərdə nağdsız ödənişlərə üstünlük verənlərin sayının xeyli artacağı əvvəlcədən bəlli idi. Bunu nəzərə alan Vergilər Nazirliyi Oyunların keçiriləcəyi ərazilərdə POS-terminalların quraşdırılması və onlardan istifadə məsələlərini ciddi nəzarətə götürmüşdür. Böyük idman arenalarının ətrafında apardığımız müşahidələr göstərdi ki, həqiqətən də ticarət və xidmət obyektlərinin demək olar ki, hamısında POS-terminallar işlək vəziyyətdədir və insanlar rahat şəkildə nağdsız qaydada ödənişlərini edə bilir.

Vergi əməkdaşları tərəfindən POS-terminallardan istifadənin üstünlükləri və istifadə qaydası barədə maarifləndirmə işlərinə də böyük önəm verilmişdir. Söhbət etdiyimiz biznes strukturlarının əməkdaşlarının sözlərinə görə, obyektlərdə quraşdırılmış POS-terminallarından istifadə vərdişlərinin aşılanması, eləcə də nağdsız ödənişlərin əlverişliliyi və üstünlükləri barədə geniş izahat və təbliğat işlərinin həyata keçirilməsi bu məsələdə onların işini xeyli asanlaşdırıb. Vergilər Nazirliyi tərəfindən hazırlanmış «POS-terminalların tətbiqi ilə əlaqədar vergi ödəyicilərinin məlumatlandırılması zamanı görülməli işlərə dair tövsiyələr» vergi ödəyicilərinin və satıcıların bu sahədə maariflənməsində önəmli rol oynamışdır.

Əhali arasında aparılan maarifləndirmə işlərinin genişləndirilməsi, POS-terminallardan istifadənin iqtisadi cəhətdən daha sərfəli olduğunu göstərmək üçün konkret əməli tədbirlərin həyata keçirilməsi istiqamətində işlər daha da gücləndiriləcək. Nağd ödənişlərin həcminin azaldılması və nağdsız ödənişlərin stimullaşdırılması üçün qanunvericilikdə bir sıra dəyişikliklər edilməsi də istisna olunmur. Bütün bunlar isə, öz növbəsində, iqtisadiyyatda şəffaflığın yüksəlməsinə, korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə və vergi daxilolmalarının artmasına müsbət təsirini göstərəcək.

**Rəşad SADIQOV**

# İpoteka sahəsində daha bir önəmli addım

*Nazirlər Kabinetinin 2015-ci ilin 6 ayının sosial-iqtisadi inkişafının yekunlarına həsr olunan iclasında Prezident İlham Əliyevin ipoteka kreditləşməsi ilə bağlı səsləndirdiyi fikirlər bu mövzunun yenidən gündəmə gəlməsinə səbəb olub.*

Dövlətimizin başçısı müşavirədəki yekun çıxışında xüsusilə gənclər və digər kateqoriyalı insanların həyat şəraitinin yaxşılaşdırılması məqsədilə ipoteka kreditləşməsi ilə bağlı dövlət büdcəsindən əlavə 200 milyon manat vəsaitin ayrılacağını qeyd edib: «Hesab edirəm ki, ən azı 200 milyon manat, bəlkə də çox, ilin sonuna qədər ipotekaya dövlət büdcəsindən verilməlidir. Maliyyə Nazirliyi, Mərkəzi Bank bu məsələ ilə məşğul olurlar. Bu qurumlara müvafiq göstərişlər verilib, mənə məruzə etsinlər ki, bir müddətdən sonra bu prosesi icra edək». Ölkə Prezidenti əlavə edib ki, şərtlər elə olmalıdır ki, əhali arasında ipotekaya maraq artsın.

Mövzu ilə müraciət etdiyimiz hüquqşünas Vüqar Səfərlinin sözlərinə görə, çoxdan gözlənilən bu addım təqdirəlayiqdir: «Cənab Prezidentin də qeyd etdiyi kimi, buna ehtiyac var idi. Hesab edirəm ki, xüsusən gənc ailələrin mənzil probleminin həllinə hesablanmış bu qərar tezliklə öz müsbət nəticəsini verəcək. Bu, həmçinin, ölkənin tikinti sektorunda, daşınmaz əmlak bazarında canlanma yaradacaq və nəticə etibarilə əhalidə ipoteka kreditləşməsinə marağı artıracaq. İpoteka proqramının mənzillərin birbaşa tikinti şirkətlərindən alınmasına yönəldilməsi tikinti sektorunun inkişafını sürətləndirə bilər. Bu halda ipoteka proqramı üzrə ayrılan pullar hədər getməyəcək, yeni iş yerləri və iqtisadi inkişafa gətirib çıxarmaqla yanaşı, həmin vəsaitin ən azı 20%-i dövlət büdcəsinə vergi ödəmələri şəklində geri qayıdacaqdır».

Qeyd edək ki, 2005-ci ilin dekabrında yaradılmış Azərbaycan İpoteka Fondunun (AİF) agent bankları 2006-2015-ci illərdə 17,166 min ipoteka krediti həyata keçiriblər. AİF-in məlumatına əsasən, yaranlığı gündən indiyədək qurumun vəsaitləri hesabına ipoteka kreditləşməsinin həcmi 692 mln. 817,03 min manat təşkil edib.

**FƏXRİYYƏ**



# Daşınmaz əmlakın təkrar qeydiyyatında yeni onlayn xidmət

*Ötən həftə Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən «Daşınmaz əmlakın təkrar qeydiyyatında yeni onlayn xidmət» mövzusunda ictimai təqdimat keçirilib. Tədbirdə çıxış edən komitənin sədr müavini Rafiq Cəlilov bildirib ki, Azərbaycan Respublikası Prezidentinin tapşırıqlarına uyğun olaraq, xidmət səviyyəsinin yüksəldilməsi, şəffaflığın və çevikliyin daha da artırılması istiqamətində ardıcıl iş aparılır.*



Qeydiyyat prosesinin sadələşdirilməsi, informasiya-kommunikasiya texnologiyalarından geniş istifadə, elektron və onlayn xidmətlərin tətbiqi, xidmət şəraitinin və dövlət qulluqçularının etik davranış səviyyəsinin yüksəldilməsi bu sahədə atılan ardıcıl addımlardır. Komitə rəsmisinin sözlərinə görə, yeni onlayn xidmətin tətbiqində məqsəd daşınmaz əmlakın qeydiyyatını daha da sadələşdirmək, qeydiyyat üçün lazım olan prosedurları minimuma endirmək, xüsusilə vaxt itkisini aradan qaldırmaqdır. Təqdimat zamanı müasir dövrdə elektron əmlak idarəçiliyi sisteminin qurulması, məmur-vətəndaş ünsiyyətinin azaldılmasında yeni onlayn xidmətlərin rolu və faydaları barədə məlumat verilib. Məhz yeni onlayn xidmətin istifadəyə verilməsi ilə daşınmaz əmlakın təkrar qeydiyyatında əvvəllər mövcud olmuş daha bir prosedur aradan qalxıb. Belə ki, vətəndaşların, fiziki və hüquqi şəxslərin notariusda rəsmiləşdirdikləri daşınmaz əmlaka dair təkrar bazarda alqı-satqı sənədləri artıq onlayn rejimdə ərazi qeydiyyat idarələrinə göndəriləcək. Bununla da vətəndaşların notariusda edilən alqı-satqı əməliyyatından sonra sənədləşmə üçün yenidən ərazi qeydiyyat idarəsinə gəlmələrinə ehtiyac qalmayacaq. Ümumiyyətlə, əvvəllər qeydiyyat üçün 4 prosedur tələb olunurdusa, onlayn xidmətlərin istifadəyə verilməsindən sonra bu say 2-yə enib. Belə ki, ötən il daşınmaz əmlakın yüklülüyünə dair Forma-1 arayışlarının onlayn verilməsi xidməti istifadəyə verilib, bu il isə növbəti onlayn xidmətin tətbiqi ilə qeydiyyat prosesi daha da sadələşdiriləcək. Gələcəkdə isə daha yeni elektron və onlayn xidmətlərin istifadəyə verilməsi nəzərdə tutulur. Qeyd edək ki, komitənin onlayn xidmətləri Dünya Bankının dəstəyi ilə həyata keçirilən «Daşınmaz əmlakın qeydiyyatı» layihəsi çərçivəsində istifadəyə verilib. Bu xidmətlər Daşınmaz Əmlakın Milli Qeydiyyat Sistemi əsasında fəaliyyət göstərəcək. Daşınmaz əmlakın təkrar qeydiyyatı ilə bağlı alqı-satqı müqaviləsi bağlandıqdan sonra müqavilə barədə məlumatlar onlayn rejimdə sistemə ötürülür. Bu zaman avtomatik olaraq daşınmaz əmlakın qeydiyyatı ilə bağlı ərizənin nömrəsi və çıxarışın hazır oldugu tarix bəlli olur və dərhal vətəndaşa elektron və kağız formada bildiriş göndərilir. Eyni zamanda, yeni onlayn xidmətin tətbiqindən sonra qeydiyyatla bağlı dövlət rüsumu və xidmət haqqını da onlayn qaydada həyata keçirmək mümkündür. Ərizəçi birbaşa alqı-satqı əməliyyatını həyata keçirdiyi məkanda quraşdırılmış onlayn ödəniş terminallarında müvafiq ödənişləri edə bilir. Bununla da vətəndaşın rüsum və xidmət haqlarını ödəməsi üçün başqa yerə getməsinə ehtiyac qalmır. Tədbirdə qeyd olunub ki, komitənin yeni Əsasnaməsinin təsdiq olunmasından sonra mülkiyyət hüquqlarının tənzimlənməsində vahid mərkəzdən idarəçilik - «bir pəncərə» prinsipi tətbiq edilir. Artıq vətəndaşlar yalnız bir ünvana müraciət etməklə onlara məxsus daşınmaz əmlakları dövlət reyestrində qeydiyyata aldıra bilirlər. Bu da qeydiyyat üçün tələb olunan sənədləşdirmə prosesində rahatlığın, operativliyin və şəffaflığın təminatı deməkdir. Ekspertlərin fikrincə, yeni onlayn xidmət daşınmaz əmlak bazarında aktivliyi artıracaq, alqı-satqı proseslərinin daha operativ həyata keçməsini təmin edəcək və bu sahədə əlavə vaxt itkisi ilə nəticələnən amillərin aradan qalxmasına səbəb olacaq. Eyni zamanda şəffaflıq, rahatlıq və operativliyin yüksəlməsi ilə vətəndaş məmnunluğunun artmasına gətirib çıxaracaq. Qeyd edək ki, komitə tərəfindən cari ilin altı ayı ərzində vətəndaşlara müxtəlif fəaliyyət istiqamətləri üzrə 75 mindən çox elektron xidmət göstərilib. Ümumilikdə isə indiyədək elektron xidmətlər vasitəsilə fiziki və hüquqi şəxslər tərəfindən 220 mindən çox müraciət qəbul edilmiş və qanunvericiliyə uyğun qaydada təmin olunmuşdur.

**Fəxriyyə İKRAMQIZI**

# Uçot dərəcələrinin aşağı salınmasından gözləntilər...




Azərbaycan iqtisadiyyatı qlobal böhran fonunda öz dayanıqlığını qoruyur və sabit inkişaf kursunu davam etdirir. Cari ildə iqtisadi tsikldəki yeni meyillərə adekvat olaraq makroiqtisadi siyasətdə həyata keçirilən mühüm təshih tədbirləri milli iqtisadiyyatın dayanıqlığının qorunmasına yönəlib. Həyata keçirilən məqsədyönlü məzənnə siyasəti iqtisadiyyatın beynəlxalq rəqabət qabiliyyətinin güclənməsinə və tədiyyə balansının strateji dayanıqlığına müsbət təsir edib. Eyni zamanda makroiqtisadi sabitlik qorunub, 2015-ci ilin birinci yarısında inflyasiya aşağı tərəqəmli səviyyədə qalıb. Son 2 ayda valyuta bazarı və manatın məzənnəsi əhəmiyyətli dərəcədə stabilləşib, Mərkəzi Bankın valyuta ehtiyatlarında artım müşahidə olunub.

Azərbaycan Mərkəzi Bankı ölkədə makroiqtisadi sabitliyin qorunması ilə yanaşı, iqtisadi artımın və milli iqtisadiyyatın şaxələnməsi proseslərinin dəstəklənməsi istiqamətində də məqsədyönlü fəaliyyətini davam etdirib. Bu sahədə ən mühüm fəaliyyət istiqamətlərindən biri bank xidmətlərinin ucuzlaşması, xüsusilə faiz dərəcələrinin enməsinin təşviq olunmasıdır. Bununla bağlı son vaxtlar bank sektorunun fəaliyyətinin tənzimlənməsi üzrə həyata keçirilən tədbirlər faizlərin aşağı düşməsinə şərait yaradır.

Qeyri-neft sektorunda iqtisadi artıma maliyyə dəstəyini gücləndirmək, kredit faizlərinin enməsini sürətləndirməklə investisiyaları stimullaşdırmaq, kiçik və orta biznesin maliyyələşməsinin və əhalinin ipoteka kreditləşməsinin dəyərinin optimallaşmasına monetar zəmin yaratmaq məqsədilə uçot dərəcəsinin endirilməsi barədə qərar qəbul edilib.

Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin qərarına görə, 2015-ci il iyulun 13-dən uçot dərəcələri 3,5%-dən 3%-ə endirilib. İqtisadçı ekspert Samir Əliyev məsələ ilə bağlı bildirib ki, Mərkəzi Bankın uçot dərəcəsini aşağı salmasından sonra qeyri-neft sektorunda iqtisadi artıma maliyyə dəstəyinin gücləndirilməsi, kredit faizlərinin azaldılması, kiçik və orta biznesin maliyyələşməsinin yaxşılaşdırılması gözlənilir: «Bütün dünyada uçot dərəcəsi monetar siyasətin bir aləti kimi mərkəzi banklar tərəfindən dövri olaraq dəyişdirilir. Ölkədə güclü inflyasiya təzyiqi olanda, bir qayda olaraq, uçot dərəcəsi qaldırılır ki, kreditlər bahalaşsın. Bununla da inflyasiya səviyyəsi tələb olunan həddə endirilir. İqtisadi aktivlik, inflyasiya aşağı olanda və ya deflyasiya zamanı isə uçot dərəcəsi azaldılır ki, iqtisadiyyat ucuz pulla təmin olunmaqla əlavə tələbat yaransın və aktivlik artsın. Məsələn, son zamanlar dünya iqtisadiyyatında müşahidə edilən böhran ABŞ, Avropa və Yaponiya kimi ölkələrin mərkəzi banklarının uçot dərəcəsini aşağı salmağa vadar etdi. Azərbaycanda da dövri olaraq uçot dərəcələrinin dəyişməsi baş verir. Sonuncu dəfə 2010-cu ilin oktyabrında uçot dərəcəsi indiki səviyyədə olub. 2011-ci ilin mayına kimi tədricən 5.25%-ə qədər qaldırılıb, sonra yenidən üzüaşağı gedib».

Ekspertin sözlərinə görə, Mərkəzi Bank kredit təşkilatlarına verdiyi mərkəzləşdirilmiş kreditlərin faiz dərəcəsini aşağı salmaqla, bankların əhaliyə verdiyi kreditləri ucuzlaşdırmağa çalışır: «Bununla yanaşı, Mərkəzi Bank son illər mərkəzləşdirilmiş kreditlərin həcmini də artırır. 2015-ci ilin 5 ayında bu kreditlər 3,2 milyarddan 4,2 milyard manatadək yüksəlib, ümumi kredit qoyuluşunda mərkəzləşdirilmiş kreditlərin payı 17%-dən 21%-ə çatıb. Bu, bazara təsir etmək üçün kifayət qədər yüksək göstəricidir. Ancaq bütün banklar bu kreditlərdən yararlana bilmir. Səbəb həmin bankların Mərkəzi Bankın mərkəzləşdirilmiş kreditlərini almaq üçün tələblərinə cavab verə bilməməsidir. Məhz buna görə də uçot dərəcəsinin dəyişməsi, bir qayda olaraq, kredit bazarına zəif təsir edir. Bu baxımdan, mərkəzləşdirilmiş kreditlərin daha çox bankı əhatə etməsi uçot dərəcəsinin əhəmiyyətini artıra bilər və Mərkəzi Banka monetar siyasəti sərbəst həyata keçirməyə imkan verər».

Mərkəzi Bankın sədri Elman Rüstəmov bank rəhbərləri ilə görüşərək bank sektorunun bir sıra aktual məsələləri, o cümlədən maliyyə xidmətlərinə çıxış, faiz dərəcələri və məsuliyyətli kreditləşmə barədə ətraflı müzakirələr aparıb. Görüş zamanı bankların xüsusilə fiziki şəxslərin kreditləşdirilməsi ilə əlaqədar sosial məsuliyyətinin gücləndirilməsi, kredit siyasətinin ölkənin iqtisadi inkişaf prioritetlərinə xidmət etməsinin vacibliyi diqqətə çatdırılıb, bu və digər istiqamətlər üzrə müzakirələr aparılıb. Bildirilib ki, bank rəhbərləri qeyd olunan məsələlərin həlli məqsədilə bütün imkanlardan və resurslardan istifadə etməlidirlər. Görüşdə, həmçinin, bankların resurslarının dəyərinin ucuzlaşdırılması, risklərin azaldılması, xərclərin optimallaşdırılması və onların faiz dərəcələrinə təsiri kimi məsələlər təhlil olunub, bu istiqamətdə Mərkəzi Bank tərəfindən görülmüş işlər, o cümlədən planlaşdırılan əlavə tədbirlər barədə məlumat verilib.

**Fəxriyyə İKRAMQIZI**

# Vergi öhdəliyinə hər kəs əməl etməlidir

Azərbaycanın mövcud vergi qanunvericiliyinə əsasən, hər bir vergiyə dair ödənilmə müddətləri müəyyən edilmişdir. Ödəniş müddəti təqvim tarixi və ya illərlə, rüblərlə, aylarla, dekadalarla, həftələrlə və günlərlə hesablanan dövrün qurtarması ilə və ya baş verməli hadisə, yaxud edilməli olan hərəkət, proses göstərilməklə müəyyən olunur. Bu müddətlərdən kənara çıxmaq qanunvericiliyin pozulması ilə nəticələnir və belə hallara yol verən vergi ödəyiciləri müvafiq maliyyə sanksiyaları ilə üzləşirlər.

Vergilərin ödənilmə müddətləri pozulmaqla ödənilməsinə görə vergi ödəyicisi müəyyən edilmiş qaydada və şərtlərlə faiz ödəməlidir. Vergi orqanları vergiyə cəlb edilən hesabat dövrü qurtardıqdan sonra 3 il ərzində vergi ödəyicisinin vergisini, faizləri və maliyyə sanksiyasını hesablamaq və hesablanmış məbləği yenidən hesablamaq, verginin, faizlərin və maliyyə sanksiyalarının hesablanmış (yenidən hesablanmış) məbləğini vergiyə cəlb edilən hesabat dövrü qurtardıqdan sonra 5 il ərzində tutmaq hüququna malikdirlər. Eyni zamanda, vergi ödəyicisi vergi hesabatı dövrü qurtardıqdan sonra 3 il ərzində ondan düzgün tutulmamış vergilərin, faizlərin və maliyyə sanksiyalarının hesablanmasını və hesablanmış məbləğin yenidən hesablanmasını, artıq ödənilmiş vergilərin, faizlərin və maliyyə sanksiyalarının məbləğinin qaytarılmasını və ya əvəzləşdirilməsini 5 il ərzində tələb etmək hüququna malikdir.

Bəs vergilərin müəyyən edilmiş ödənilmə müddətinin dəyişdirilməsi mümkündürmü? Vergi ödəyiciləri tərəfindən tez-tez səsləndirilən bu suala aydınlıq gətirmək üçün Vergi Məcəlləsində müvafiq qaydalar müəyyənləşdirilmişdir. Məcəlləyə əsasən, vergi öhdəliklərinin yerinə yetirilməsi müddətləri aşağıda göstərilən halların biri baş verdikdə müəyyən edilmiş müddətdən daha gec müddətə dəyişdirilə bilər. İlk növbədə, vergi ödəyicisindən asılı olmayaraq baş verən təbii hadisələr, fəlakət və digər qarşısıalınmaz qüvvə nəticəsində vergi ödəyicisinin zərər görməsi vergi öhdəliklərinin yerinə yetirilməsi müddətinin dəyişdirilməsinə əsas ola bilər. Bu halda, vergi ödəyicisi hadisənin baş verməsi və onun nəticəsində dəymiş zərərin məbləği barədə müvafiq dövlət orqanlarının arayışlarını təqdim etməlidir.

***Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin dəyişdirilməsi qanunvericiliklə tənzimlənir***

Bundan başqa, vergini birdəfəyə ödədiyi təqdirdə, vergi ödəyicisinin iflasa uğramaq təhlükəsi ortaya çıxarsa, öhdəliklərin yerinə yetirilməsi müddətləri dəyişdirilə bilər. Bunun üçün vergi ödəyicisi vergi orqanına müraciət etdiyi tarixə kassasında, milli və ya xarici valyutada cari və ya digər hesablarında vəsaitlərin qalığı, debitorların və kreditorların adı, VÖEN göstərilməklə debitor və kreditor borcları barədə arayışları təqdim etməlidir. Ancaq bütün hallarda vergilərin ödənilmə müddətinin dəyişdirilməsi mövcud olan öhdəliyi ləğv etmir və yeni vergi öhdəliyi yaratmır.

Vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması üçün vergi ödəyicisi yazılı şəkildə əsaslandırılmış və vergi öhdəliyinin yerinə yetirilməsi üçün müvafiq girovun və ya zəmanətin verildiyini özündə əks etdirən müraciətini vergi orqanına göndərir. Müraciət vergi növü (növləri) üzrə müvafiq hesabat dövrü üçün qanunvericiliklə müəyyən edilmiş ödəmə müddətinədək təqdim olunmalıdır. Müvafiq icra hakimiyyəti orqanı 30 gün müddətində bu müraciətə baxır və əsaslar olduğu halda, müddətin uzadılması barədə qərar qəbul edir. Vergi öhdəliyinin yerinə yetirilməsi müddəti vergi ili dövründə 1 aydan 9 ayadək uzadıla bilər. Həmin müddət ərzində vergi ödəyicisinə faizlər hesablanmır.

Onu da qeyd edək ki, vergi ödəyicisinə münasibətdə vergi qanunvericiliyinin pozulması ilə bağlı cinayət işi qaldırılıbsa, vergi öhdəliyinin yerinə yetirilməsi müddəti uzadıla bilməz.

Vergi öhdəliyinin yerinə yetirilməsinin uzadılmış müddətinə aşağıdakı hallarda vaxtından əvvəl xitam verilir:

- vergi ödəyicisi vergi öhdəliyini vaxtından əvvəl yerinə yetirdikdə;
- vergi ödəyicisinə cinayət işi qaldırıldıqda;
- vergi orqanının vergi öhdəliyinin yerinə yetirilməsi müddətinin uzadılması barədə qərarının şərtlərinə əməl edilmədikdə.

Vergi öhdəliyinin yerinə yetirilməsinin uzadılmış müddətinə vaxtından əvvəl xitam verilməsi haqqında qərar vermiş vergi orqanı 5 gün müddətində vergi ödəyicisinə bu barədə məlumat çatdırmalıdır. Vergi ödəyicisi məlumatı aldığı tarixdən 30 gün müddətində borc məbləğini və qanunvericiliyə uyğun olaraq ödəmə gününə qədər həmin məbləğə hesablanmış faizləri büdcəyə köçürməlidir.

**Rəşad SADIQOV**

# Qiymətli kağızlar bazarında canlanma hiss olunur

*Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi bu ilin birinci yarımilliyi ərzində görülən işlərə dair fəaliyyət hesabatını açıqlayıb. Komitənin məlumatına görə, 2015-ci ilin ilk 6 ayı ərzində qlobal maliyyə və əmtəə bazarlarında baş verən proseslər ölkənin maliyyə sektorunda likvidliyin əhəmiyyətli şəkildə daralmasına səbəb olmuş, bu isə investisiyaların daha likvid qısamüddətli aktivlərə yönləndirilməsini və qiymətli kağızların təkrar ticarətinin canlanmasını şərtləndirmişdir.*

Dövlətin monetar və fiskal siyasətinin dəyişməsi nəticəsində dövlət qiymətli kağızlar bazarı və korporativ qiymətli kağızlar sektorunda müşahidə olunan durğunluğa baxmayaraq, törəmə qiymətli kağızlar bazarı və bütövlükdə qiymətli kağızların təkrar bazar əməliyyatlarında müşahidə olunan pozitiv trendlər cari il ərzində bütövlükdə bazarın artımını təmin etmişdir. Bu ilin 6 ayı ərzində qiymətli kağızlar bazarında əməliyyatların həcmi 20 faiz artaraq 7,1 milyard manat təşkil etmişdir.

Cari ildə korporativ qiymətli kağızlarla ticarət əməliyyatları aylıq orta hesabla 22 faiz artaraq 1,7 milyard manata çatmışdır. Hesabat dövründə korporativ qiymətli kağızların ilkin bazarında durğunluq müşahidə olunsa da, bu alətlərlə təkrar bazar əməliyyatları 3,7 dəfə artaraq 1,5 milyard manat təşkil etmişdir. Cari ildən etibarən səhm bazarının aktiv iştirakçıları olan kommersiya banklarına qarşı kapital tələb artımının müddətinin bitməsi bazarın səhm seqmentinin ötən ilin müvafiq dövrü ilə müqayisədə azalmasına səbəb olmuşdur. Dövr ərzində səhmlərin yerləşdirilməsinin 82% geriləməsi bütövlükdə səhm bazarında əməliyyatların həcminin 50 faiz azalaraq 377,5 milyon manat təşkil etməsi ilə nəticələnmişdir. Buna baxmayaraq, bəzi investisiya vəsaitlərinin daha qısamüddətli aktivlərə yönləndirilməsi tendensiyası nəticəsində səhmlərin təkrar bazarı 15 dəfə artaraq 243,8 milyon manat təşkil etmişdir.

Dövr ərzində Mərkəzi Bank və Maliyyə Nazirliyi tərəfindən dövlət istiqrazlarının emissiyasının baş tutmaması dövlət qiymətli kağızlar bazarında əqdlərin həcminin ötən il ilə müqayisədə 97 faiz azalaraq 128,1 milyon manat təşkil etməsi ilə nəticələnmişdir. Dövlət istiqrazlarının təkrar bazarı isə hesabat dövrü ərzində 37 faiz artaraq 17,5 milyon manat təşkil etmiş, eləcə də

***2015-ci ilin birinci yarısında korporativ qiymətli kağızlarla ticarət əməliyyatları aylıq orta hesabla 22 faiz artaraq 1,7 milyard manata çatmışdır***

32,2 milyon manat həcmində dövlət istiqrazları, 78,4 milyon manat həcmində isə korporativ istiqrazlarla banklararası repo əməliyyatları həyata keçirilmişdir. Cari il ərzində Bakı Fond Birjasının törəmə qiymətli kağızlar platformasında ümumi məbləği 75,6 milyon manat olan əmtəə əsaslı və ümumi dəyəri 5,2 milyard manat olan valyuta əsaslı törəmə qiymətli kağızlarla ticarət əməliyyatları həyata keçirilmiş, törəmə qiymətli kağızlar bazarının həcmi 5,2 milyard manat təşkil etmişdir.

2015-ci il ərzində qiymətli kağızlar bazarının hüquqi və tənzimləyici bazasının qabaqcıl beynəlxalq təcrübəyə uyğunlaşdırılması sahəsində əhəmiyyətli nəticələr əldə edilmişdir. Bu dövrdə qiymətli kağızlar bazarının üçüncü nəsil qanunvericiliyi, «Qiymətli kağızlar bazarı haqqında» Qanun Milli Məclis tərəfindən qəbul olunmuş və imzalanması üçün Prezidentə təqdim edilmişdir. Qanun layihəsinin hazırlanması ilə bərabər hüquqi mühitin təmin edilməsi məqsədilə Mülki Məcəllənin qiymətli kağızlar bazarına dair müddəalarına da dəyişikliklər edilmişdir. Belə ki, sözügedən qanun layihəsində qiymətli kağızlar bazarına dair xüsusi müddəalar müəyyən edilmiş, ümumi müddəalar isə Mülki Məcəllədə saxlanılmışdır. «Qiymətli kağızlar bazarı haqqında» qanun layihəsi bütövlükdə qiymətli kağızlar bazarında tənzimlənmənin qabaqcıl beynəlxalq standartlar əsasında həyata keçirilməsini nəzərdə tutur, iqtisadi subyektlərə və əhaliyə təqdim olunan maliyyə xidmətlərinin daha da genişlənməsini təşviq edən və bazarın dinamik inkişafı üçün əlverişli zəmin formalaşdırır. Qanun layihəsi hazırlanarkən qabaqcıl beynəlxalq hüquqi çərçivə kimi Qiymətli Kağızlar Bazarı Tənzimləyicilərinin Beynəlxalq Təşkilatının (İOSCO) bazar tənzimlənməsinə dair on son prinsiplərindən, habelə Avropa Birliyinin qiymətli kağızlar bazarına aid Direktivləri və Avropa Birliyi ölkələrinin milli qanunvericiliyindən istifadə olunmuşdur.

Qeyd edək ki, bu günlərdə dövlət başçısı «Qiymətli kağızlar bazarı haqqında» Qanunun tətbiqi barədə fərman imzalayıb.

**A.NƏBİYEVA**

# Fərdi hesabı olan sığorta olunanların sayı artıb

*Əmək pensiyalarının və digər sosial müdafiə hüquqlarının təmin edilməsi üçün hər bir sığortaolunan haqqında məlumatların uçotunun təşkili və aparılması fərdi uçot sisteminə əsasən həyata keçirilir. «Əmək pensiyaları haqqında» Qanuna görə, əmək pensiyaları fərdi (şəxsi) hesaba toplanan pensiya kapitalına uyğun hesablanır ki, bu da pensiya məbləğinin sosial sığorta haqlarının vaxtında ödənilməsindən asılı edır.*

Dövlət Sosial Müdafiə Fondu (DSMF) tərəfindən verilən məlumata görə, 2015-ci ilin iyun ayında əlavə olaraq 15.412 sığortaolunana fərdi hesab açılıb. Fonddan bildirilib ki, cari ilin əvvəli ilə müqayisədə DSMF-nin fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların sayı 4,12 faiz artıb. Bununla da ölkədə şəxsi hesabı olan sığortaolunanların sayı 3.098.817 nəfərə çatıb. Fondun fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların 59,1 faizi - yəni 1.831.564 nəfəri kişi, 40,9 faizi - 1.267.253 nəfəri isə qadındır.

Fərdi hesabı olanlar arasında üstünlüyü 30-40 yaş aralığında olan sığortaolunanlar təşkil edir. Göstərilən yaş kateqoriyalarına aid şəxslər ümumi sığortaolunanların 24,84 faizini (769.703 nəfər) əhatə edir. Bundan başqa, fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların 21,59 faizini (669.101 nəfər) 30 yaşa kimi, 20,69 faizini (641.144 nəfər) 40-50 yaş, 21,15 faizini (655.449 nəfər) 50-60 yaş, 11,73 faizini (363.420 nəfər) 60 yaşdan yuxarı şəxslər təşkil edir.

***Sistemdə qeydiyyata alınan əcnəbilər də az deyil***

İyulun 1-i tarixinə olan statistikaya əsasən, cari ilin əvvəli ilə müqayisədə DSMF-nin fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilərin sayı 11,03 faiz artıb. İyun ayı ərzində əlavə olaraq 617 nəfər əcnəbi vətəndaş qeydiyyata alınıb və nəticədə fərdi uçot sistemindəki əcnəbilərin sayı 25.010 nəfərə yüksəlib.

Dövlət sosial sığorta sistemində fərdi hesabı olan əcnəbilərin 88,57 faizini (22 152 nəfər) kişilər, 11,43 faizini (2 858 nəfər) isə qadınlar təşkil edir.

Ümumilikdə 104 ölkənin vətəndaşlarını əhatə edən əcnəbilər arasında ən yüksək say göstəricisi Türkiyə vətəndaşları üzrə (12.886 nəfər) müşahidə olunur. Fərdi uçot sistemində qeydiyyata alınan əcnəbilərin sayına görə ikinci yerdə gələn Gürcüstan vətəndaşlarının sayı 2739 nəfərə, üçüncü yerdə olan Rusiya Federasiyasının vətəndaşlarının sayı isə 1446 nəfərə çatıb. Sonrakı yerlərdə İran İslam Respublikası (934), Çin (811), Hindistan (773), Pakistan (507), Böyük Britaniya və Şimali İrlandiya Krallığı (496), Ukrayna (335), Banqladeş (315), Özbəkistan (259), Almaniya (217), ABŞ (216), Filippin (206), Türkmənistan (197), Qazaxıstan (185), Koreya Respublikası (181), İtaliya (174) və s. ölkələr qərarlaşıb.

***Sığortaolunanlar pensiya kapitalını izləyə bilir***

Qeyd edək ki, DSMF-nin fərdi uçot sistemində qeydiyyatda olan hər bir sığortaolunan özü üçün məcburi dövlət sosial sığorta haqlarının vaxtında və tam məbləğdə köçürülməsinə nəzarət etmək imkanına malikdir. İstənilən sığortaolunan həm DSMF-nin saytı (www.sspf.gov.az ), həm də «Elektron hökumət» portalı» (www.e-gov.az) vasitəsilə «Sığortaolunanlara məlumatların verilməsi» adlı elektron xidmətdən istifadə etməklə, onun üçün işəgötürən tərəfindən hər ay üzrə ödənilən məcburi dövlət sosial sığortası barədə məlumatları maneəsiz əldə etmək və illər üzrə öz pensiya kapitalını izləyə bilər. Bu da işləyənlərin işəgötürənlər üzərində ictimai nəzarətinin daha da güclənməsinə şərait yaradır.

**AYTƏN**

# Daşınmaz əmlakın icbari sığortası

Daşınmaz əmlakın yanğın və ya digər hadisələr nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı formada itkisi ilə bağlı dəyən zərərin əvəzinin ödənilməsi məqsədi ilə daşınmaz əmlakın icbari sığortası tətbiq edilir. Göstərilən məqsədlər üçün hüquqi və fiziki şəxslərə məxsus tikililərin, yaşayış və qeyri-yaşayış sahələrinin, yaşayış evləri və binaların, mənzillərin, habelə siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyənləşdirilən dövlət əmlakının sığortası icbaridir.

Sökülməsi barədə dövlət və yerli özünüidarəetmə orqanlarının qərar verdiyi, tikintisi başa çatmayan, qəzalı vəziyyətdə olan, eləcə də Azərbaycan Respublikasının qanunvericiliyi ilə icazə verilməyən yerlərdə inşa edilmiş daşınmaz əmlak icbari sığortaya cəlb olunmur. Yaşayış binalarının, yaşayış evlərinin və mənzillərin icbari sığortası onların konstruktiv elementlərinə, otaqlarına, o cümlədən şüşələr də daxil olmaqla qapı və pəncərə konstruksiyalarına, su, kanalizasiya və qaz təchizatına, habelə istilik sisteminə aid borulara, rabitə, elektrik və digər naqillərə, bəzək elementlərinə, o cümlədən bütün növ xarici, yaxud daxili mala və suvaq işlərinə, divar, tavan və döşəməyə dəyən zərərlərə təminat verir.

Daşınmaz əmlakın yanğın, ildırım düşməsi, məişətdə və istehsalatda istifadə olunan qazın partlayışı, elektrik naqillərində baş verən qısaqapanma, buxar qazanlarının, qaz anbarlarının, qaz kəmərlərinin, maşınların, aparatların və digər oxşar qurğuların və ya cihazların partlayışı, su, istilik, kanalizasiya kəmərlərinin və yanğınsöndürmə sistemlərinin qəzası, habelə qonşu tikililərdən, yaşayış və qeyri-yaşayış sahələrindən, yaşayış evlərindən və binalarından, mənzillərdən, otaqlardan daxil olan su nəticəsində subasma, hər hansı predmetin və ya onun hissələrinin düşməsi, atılması, dəyməsi, dağılması, axıdılması və digər bu kimi formalarda təsiri, yerüstü nəqliyyat vasitəsinin dəyməsi, təbii fəlakətlər - zəlzələ, vulkan, fırtına, qasırğa, tufan, dolu, sel, daşqın, leysan, yer sürüşməsi, üçüncü şəxslərin hərəkətləri nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı digər formada itkisi sığorta hadisəsi hesab olunur.

Qanunvericiliyə uyğun olaraq, yuxarıda nəzərdə tutulanlardan əlavə risklər üzrə sığorta təminatları tərəflər arasında bağlanan könüllü sığorta müqaviləsində müəyyən edilir. Sığortalının, faydalanan şəxsin və ya onların rəhbər işçilərinin hadisənin baş verməsinə yönəldilmiş qəsdən etdiyi hərəkətlər, sığortalanmış əmlaka təmir, emal və ya digər istehsalat məqsədləri üçün tətbiq olunan istehsal alovunun, yaxud istiliyin təsiri nəticəsində, eyni zamanda yanğın baş verməmişdirsə, belə əmlaka zərərin dəyməsi, hadisə zamanı və ya hadisədən sonra əmlakın hər hansı hissəsinin oğurlanması, qrunt sularının səviyyəsinin dəyişməsi, suyun borularda və ya rezervuarda şaxta vurması, aşınma, yeyilmə, tədricən xarab olma, boruların və rezervuarların təmiri, köçürülməsi və ya tutumunun artırılması nəticəsində axması və bu kimi hallar nəticəsində zədələnməsi, məhv olması, yaxud hər hansı digər formada itkisi sığorta hadisəsi hesab olunmur.

Azərbaycan qanunvericiliyinə görə, daşınmaz əmlakın sığortası məcburidir və tərəflər arasında sığorta müqaviləsi hər il yenilənməlidir. İcbari Sığorta Bürosundan (İSB) aldığımız məlumata əsasən, 2015-ci ilin iyun ayında daşınmaz əmlakın icbari sığortası üzrə 13487 sığorta müqaviləsi bağlanılıb. Daşınmaz əmlakın icbari sığortası üzrə daxil olan sığorta haqlarının məbləği isə 5 milyon manat təşkil edib. Daşınmaz əmlakın icbari sığortası müqavilələrinin 81,43%-i yaşayış evləri və mənzillər, 1,45%-i inzibati binalar, 17,12%-i isə digər əmlakla bağlı olub. Ötən ilin müvafiq dövrü ilə müqayisədə daşınmaz əmlakın icbari sığortası müqavilələrinin sayında 50%, sığorta haqlarının məbləğində isə 2,4 dəfə artım müşahidə edilib. Ümumilikdə isə 2015-ci ilin yanvar-iyun ayları ərzində 67112 sığorta müqaviləsi bağlanıb və bu müqavilələr üzrə sığorta haqları 17,9 milyon manat təşkil edib.

**Fəxriyyə İKRAMQIZI**

# Yeni hesablar planı üzrə ikili yazılışların verilməsi

Xanbaba Quliyev,
Auditorlar Palatasının üzvü

Hörmətli oxucular, yeni hesablar planı üzrə ikili yazılışların verilməsi ilə bağlı tövsiyələrimizi davam etdirməzdən əvvəl uzunmüddətli maddi aktivlərə münasibətdə yaranan bəzi maraqlı məqamlara aydınlıq gətirmək istəyirik. Bu dəfə yeni hesablar planında «əsas vəsaitlər»in necə təzahür olunmasından bəhs edəcəyik.

Hazırda mühasib peşəsi ilə məşğul olan bir çox mütəxəssislər uzunmüddətli maddi aktivləri «əsas vəsaitlər» kimi ifadə edirlər. Mühasibat uçotunda və təqdimatlarında hələ də «əsas vəsaitlər» anlayışından istifadə edən mühasiblər bilməlidirlər ki, bu cür düşünməklə, uzunmüddətli aktivlər barədə bilgiləri əldə etməkdə daim çətinlikləri yarana bilər. Mühasiblərin «əsas vəsait» anlayışına olan münasibəti, baxışı birmənalı olmamalıdır. «Əsas vəsait» anlayışının yalnız vergi uçotu məqsədləri üçün istifadə edilməsi məqsədəmüvafiqdir. Mühasibat uçotu məqsədləri üçün isə uzunmüddətli maddi aktivlərin konkret təsnifat adı ilə göstərilməsi, təqdim edilməsi daha uyğun olardı. Məsələn, Kommersiya Təşkilatları üçün Milli Mühasibat Uçotu Standartlarında bircə kəlmə də olsun «əsas vəsait» ifadəsindən (sözündən) istifadə olunmayıb. Çünki uzunmüddətli aktivlərin vahid bir ifadə altında və ya vahid bir hesab başlığı altında təsnifləşdirilməsi təqdimatın anlaşıqlı olmasını məhdudlaşdıra bilər.

Ona görə də mühasiblər uzunmüddətli maddi aktivlər barədə fikir bildirərkən həmin aktivin vergi uçotu və ya mühasibat uçotu baxımından təsnifləşdirilmə mövqeyinə diqqət yetirməlidirlər. Söhbət mühasibat uçotundan gedirsə, mühasibin «əsas vəsait» ifadəsindən az istifadə etməsi məsləhətdir. Aktivin adını çəkərkən ümumi qaydada «əsas vəsait» deyil, məsələn, torpaq, tikili, avadanlıq, investisiya məqsədli torpaq və ya tikili, bioloji aktiv və digər adlara üstünlük verilməsi və ya düşünülməsi daha uyğundur.

Yalnız «Kiçik sahibkarlıq subyektlərində sadələşdirilmiş uçotun aparılması Qaydaları»nda «əsas vəsaitlər» anlayışından və eyni adlı hesabdan istifadə olunmuşdur ki, bu da sadələşdirilmiş vergi ödəyicisi olan təsərrüfat subyektlərinin çoxşaxəli açıqlanmış tələbata cavab verən uçota ehtiyacının olmaması ilə əlaqədardır. Belə təsərrüfat subyektlərində mühasibat uçotunun vergi məqsədli uçotdan əhəmiyyətli fərqi olmur.

Bir sözlə, yeni hesablar planından istifadə etməklə mühasibat uçotunu həyata keçirən mühasiblər «əsas vəsaitlər» anlayışından tədricən uzaqlaşmaqla aktivin konkret uçotunu nəzərdə tutan hesabın adı ilə adlandırılmasına (ifadə edilməsinə, deyilməsinə, təqdim edilməsinə) meyillənməsi tövsiyə olunur. Belə yanaşma mühasiblərin uzunmüddətli maddi aktivlər barədə daha dərin və düzgün bilgilərin əldə edilməsinə xidmət edər. Bu baxımdan, mühasiblər uzunmüddətli maddi aktivlərin (ümumi qaydada əsas vəsait adlandırdıqları aktivlərin) vergi və mühasibat uçotu məqsədlərinə görə aşağıdakı qaydada bölgüsünü diqqətdə saxlamalıdırlar.

Vergi uçotunda «əsas vəsaitlər»in təsnifləşdirilməsi

- amortizasiya olunan binalar, tikintilər və qurğular;
- amortizasiya olunan maşınlar, avadanlıq və hesablama texnikası;
- amortizasiya olunan nəqliyyat vasitələri;
- amortizasiya olunan iş heyvanları;
- amortizasiya olunan geoloji-kəşfiyyat işlərinə və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər;
- amortizasiya olunan digər əsas vəsaitlər.

**Diqqət:** vergi məqsədləri üçün aşağıda göstərilən amortizasiya olunmayan maddi aktivlər «əsas vəsait» hesab edilmir (lakin mühasibat uçotu məqsədləri üçün «əsas vəsait»dir):

- torpaq;
- incəsənət əsərləri;
- nadir tarixi və memarlıq abidələri olan binalar, qurğular (tikililər);
- elmi-tədqiqat, tədris və təcrübə məqsədi üçün kabinetlərdə və laboratoriyalarda istifadə edilən avadanlıqlar, eksponatlar, nümunələr, fəaliyyətdə olan və olmayan modellər, maketlər və başqa əyani vəsaitlər;
- məhsuldar heyvanlar (damazlıq inəklər, camışlar, madyanlar, dəvələr, marallar, donuzlar, qoyunlar, keçilər, döllük buğalar, kəllər, ayğırlar, nərlər, qabanlar, qoçlar, təkələr və bunlar kimi digər məhsuldar heyvanlar);
- heyvanxanalarda və digər analoji müəssisələrdə olan heyvanat aləminin eksponatları;
- istismar vaxtı çatmayan çoxillik əkmələr;
- kitabxana fondları, kinofondlar (video, audio, foto), səhnə rekvizitləri, muzey sərvətləri (eksponatları);
- tam amortizasiya olunmuş əsas vəsaitlər (istismara yararlı olduğu hallarda);
- konservasiya edilmiş əsas vəsaitlər;
- ümumi istifadədə olan avtomobil yolları;
- ümumi istifadədə olan parklardakı avadanlıqlar;
- istismara verilməmiş anbarda olan əsas vəsaitlər.

**Mühasibat uçotunda «əsas vəsaitlər»in təsnifləşdirilməsi (və ya «əsas vəsaitlər» anlayışına uyğun gələn təsnifləşdirmə)**

***1. Torpaq, tikili və avadanlıqlar (hesab №111):***

- torpaq;
- binalar;
- maşın və avadanlıqlar;
- nəqliyyat vasitələri;
- digər obyektlər;
- tikilməkdə olan obyektlər.

***2. Torpaq, tikili və avadanlıqlar üzrə tamamlanmamış kapital qoyuluşları (hesab №113):***

Tikilməkdə və ya hazırlanmaqda olan hər hansı torpaq, tikili və avadanlıqlar obyekti tikinti və hazırlanma işləri başa çatanadək yuxarıda qeyd olunan siniflərdən birinə daxil edilir.

***3. Daşınmaz əmlaka investisiyalar (investisiya məqsədli torpaq və tikili) (hesab №112):***

- icarəyə verilmiş torpaq sahələri;
- icarəyə verilmiş tikililər.

***4. Bioloji aktivlər (hesab №131):***

- canlı heyvan;
- canlı bitki.

***5. Təbii sərvətlər (hesab №141).***



Mehdi Babayev
«Professional MÜHASİB» jurnalının baş redaktoru, audit üzrə mütəxəssis

Audit

# Fiziki şəxslərin təcrübə keçməyə (stajçılığa) cəlb olunması

Hazırda ali, orta ixtisas və digər peşə-ixtisas məktəblərində təhsil aldıqdan sonra öz peşəsinə yiyələnmək məqsədilə təcrübə (stajorluq) keçmək üçün gənclər tərəfindən müəssisə və təşkilatlara müraciətlər artmışdır. Audit zamanı aydın olur ki, bu cür müraciət edən şəxslərlə münasibətlərin rəsmi qaydada həyata keçirilməsində anlaşılmazlıqlar vardır. Belə fiziki şəxləri könüllü və ya stajor da adlandırmaq olar. Lakin «könüllü fəaliyyət» və «stajorluq» fərqli anlayışlardır. Ola bilsin ki, hər ikisinin mahiyyətində təcrübə toplamaq məqsədi dura bilər, lakin fərq ondadır ki, könüllü fəaliyyətlə uzun müddət təcrübəsi olan peşəkar şəxslər də məşğul ola bildiyi halda, stajorluqla ilk dəfə peşə fəaliyyətində iş təcrübəsi toplamaq istəyən şəxslər məşğul olurlar.

Stajor olmaq istəyən şəxs müəssisəyə (təşkilata) müraciət edərkən düzgün sənədləşmələr aparılması vacibdir. Çünki həmin stajorla bağlı əməliyyatlarda əmək münasibətləri və ya mülki-hüquqi münasibətlərin yaranması mümkündür. Bəzən elə olur ki, fiziki şəxsi işçi kimi işə qəbul etməzdən əvvəl onunla «stajor» razılaşması əldə olunur və sonradan əmək müqaviləsi bağlanaraq rəsmi qaydada işə qəbul edilirlər. Bu məsələlərə daha geniş aydınlıq gətirək.

Stajor, əsasən, təcrübəli kollektivdə, məsələn, iş təcrübəsi toplamaq, kompüter proqramlarını mənimsəmək, idarəçiliyi öyrənmək və digər işlərə yiyələnmək məqsədi ilə müraciət edir. Deməli, onun marağında işi öyrənməkdir, qazanc əldə etmək deyildir. Əslində, müəssisə ona müraciət edən fiziki şəxsə stajorluq (təcrübə toplamaq) xidmətini həyata keçirir. Buradan belə nəticəyə gəlmək olar ki, stajor (təcrübə keçən şəxs) haqq ödəməli, müəssisə isə əvəzində stajçılıq (təcrübə keçmək) xidmətləri göstərməlidir və bununla da stajor və müəssisə arasında mülki-hüquqi münasibətlərin yarandığı üzə çıxır.

Bəs stajorla bağlı əməliyyatlar necə rəsmiləşdirilə bilər?

1. Stajor olmaq arzusunda olan sifarişçi fiziki şəxslə (stajor - təcrübə keçən şəxslə) və icraçı müəssisə arasında mülki-hüquqi münasibətlər çərçivəsində stajçılıq (təcrübə keçmək) xidmətlərinin göstərilməsi haqqında müqavilə bağlanılır. Müqaviləyə əsasən, müəssisə stajçılıq (təcrübə keçmək) xidmətləri göstərir və əvəzində stajor razılaşdırılmış xidmət haqqını ödəyir. Müqavilədə razılaşdırılmış müddətlərdə xidmətlərin göstərilməsi haqqında müəssisə tərəfindən stajora akt təqdim olunur, xidmətlərin dəyərinə müəssisə tərəfindən vergi hesablanır, eyni zamanda stajor tərəfindən ödənilən vəsait müəssisənin kassa-mədaxil orderi (qəbz, çek) ilə rəsmiləşdirilir. Bəzən elə ola bilər ki, stajor müəssisəyə məxsus işlərin yerinə yetirilməsində dolayısı ilə köməklik göstərdiyinə görə, müqavilədə stajora göstərilən xidmətlərin əvəzində ondan haqq tələb olunmasın. Belə olan halda, stajorla bağlanılan müqavilə əvəzsiz xidmətlərin göstərilməsi müqaviləsi halını alır və stajora göstərilən xidmətin dəyəri bazar qiymətilə ölçülərək müəssisə tərəfindən vergilər hesablanır. Hər iki müqavilə formasında Mülki Məcəllə ilə tənzimlənən bütün müddəalar çərçivəsində nəzərdə tutulan hüquqlar və vəzifələr stajora və həmçinin müəssisəyə tətbiq olunur.

2. Stajorla Əmək Məcəlləsinin tələbləri əsasında müddətli əmək müqaviləsi bağlanılır. Stajor adlandırılan şəxs əmək müqaviləsi çərçivəsində işçi kimi işə qəbul edilir və əməkhaqqı ödənilməklə əmək fəaliyyətinə cəlb olunur. Əmək Məcəlləsi ilə tənzimlənən bütün müddəalar çərçivəsində nəzərdə tutulan hüquqlar və vəzifələr stajor işçiyə və həmçinin işəgötürən müəssisəyə tətbiq olunur.

3. Fiziki şəxs könüllü fəaliyyətə cəlb olunur. Hazırda hüquqi və fiziki şəxslərin əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti sahəsində yaranan münasibətləri tənzimləyən «Könüllü fəaliyyət haqqında» Azərbaycan Respublikasının Qanunu qüvvədədir və könüllü fəaliyyətə cəlb olunan fiziki şəxslə bağlı münasibətlər bu Qanunla tənzimlənməlidir. Qanuna görə, könüllü fəaliyyət - əvəzi ödənilməyən, yəni əməkhaqqı ödənilməyən fəaliyyət kimi qiymətləndirilir. Könüllü fəaliyyətdə iki tərəf vardır: birinci tərəf könüllü, ikinci tərəf isə könüllü fəaliyyətin təşkilatçısıdır. Könüllü fəaliyyətin təşkilatçısı olan müəssisə (təşkilat) könüllü fəaliyyətə cəlb olunan fiziki şəxsə (könüllüyə) əməkhaqqı ödəməyə bilər, bir şərtlə ki, müəssisə (təşkilat) tərəfindən müvafiq qanunun tələblərinə tam və düzgün əməl olunsun. Qanunda könüllü fəaliyyətin istiqamətləri göstərilmişdir. Bunlar əlillərə, kimsəsizlərə, qocalara, aztəminatlı ailələrə, qaçqınlara və məcburi köçkünlərə kömək edilməsi, insanpərvərliyin və dözümlülüyün təbliği, istehlakçıların hüquqlarının qorunması, hüquqi və mədəni maarifləndirmə, uşaq və gənclərin təhsili, tərbiyəsi, fiziki və əqli inkişafı; idmanın inkişafı, xəstəliklər və epidemiyalar barədə məlumatlandırma, sağlam həyat tərzinin təbliği, ətraf mühitin mühafizəsi, tarix və mədəniyyət abidələrinin, mədəni və mənəvi irsin qorunması və sair istiqamətlərdir.

Göründüyü kimi, bu istiqamətlər üzrə fəaliyyətlər böyük ehtimalla kommersiya xarakterli fəaliyyətlərə yox, daha çox QHT-lərin fəaliyyət istiqamətlərinə uyğun gəlir. Ona görə də kommersiya təşkilatlarında fiziki şəxslərin könüllü fəaliyyətə cəlb olunmasının qanun pozuntusu kimi qiymətləndirilməsi əksər hallarda istisna olunmur. Yalnız tibb, təhsil, idman və könüllü fəaliyyət istiqamətlərinə aid edilən digər sahələr üzrə fəaliyyət göstərən kommersiya təşkilatlarında məlumatlandırma, maarifləndirmə, inkişafa yönəldilmiş istiqamətlərdə fəaliyyətlərə könüllülərin cəlb olunması qanunauyğundur. Müəssisə və təşkilatlarda, «Könüllü fəaliyyət haqqında» Azərbaycan Respublikası Qanununun 6-cı maddəsinin tələbinə uyğun olaraq, könüllü fəaliyyətin həyata keçirilməsinə cəlb edilən şəxslə müqavilə bağlanmalıdır. Fiziki şəxs könüllü fəaliyyətə yalnız həmin Qanunun 3-cü maddəsində göstərilən istiqamətlər üzrə cəlb oluna bilər.

## vergi təqvimi

| İYUL | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | 1 | 2 | 3 | 4 | **5** |
| 6 | 7 | 8 | 9 | 10 | 11 | **12** |
| 13 | 14 | **15** | 16 | 17 | 18 | **19** |
| 21 | **21** | 22 | 23 | 24 | 25 | **26** |
| 27 | 28 | 29 | 30 | 31 | | |

**Qeyd:** *Verginin ödənilmə və bəyannamənin verilmə müddətinin sonuncu günü təqvimdə göy rənglə seçilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilmişdir.*

**Ödənilən vergi:**

15 iyul - «(1)» və «(2)».
21 iyul - «(1-1)», «3», «4», «8», «9», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

Birinci metod: Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

İkinci metod: Cari rübdəki gəlirin məbləği keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda, vergi orqanı birinci metodu tətbiq edir.

Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)»- Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür.

Xüsusi notariuslar tərəfindən hər ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksiz vergisi:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verir. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli olan verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi:** Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

beynəlxalq panoram

## Estonoyada vergi dərəcələri aşağı salına bilər

*Yeni hökumət 2017-ci ilin ortalarından etibarən sosial vergi dərəcəsinin aşağı salınması ilə bağlı planlarını açıqlayıb. Bu addım nəticəsində həmin ilin dövlət büdcəsinin mədaxili 40 mln. avro həcmində azalacaq.*

Baş nazir Taavi Rıyvasın sözlərinə görə, sosial verginin azalması ailədə üçüncü uşağa görə dotasiya ödəmələrinin əhəmiyyətli artımı ilə paralel aparılacaq. Qeyd olunub ki, iqtisadiyyatda gözlənilməz və neqativ proseslər baş verməzsə, sosial verginin dərəcəsinin azaldılması mütləq həyata keçiriləcək.

Hökumət koalisiyası ilkin olaraq sosial vergini 1 faiz azaltmağı planlaşdırırdı, bu isə dövlət büdcəsinə daxilolmaların təxminən 80-90 milyon avro azalması demək olardı. Lakin bu tədbirin dövlət büdcəsinə əhəmiyyətli təsirini nəzərə alan hökumət onun həyata keçirilməsini 6 ay müddətə təxirə salmağa qərar verib.

## Litvanın vergi siyasətinin istiqamətləri elan olunub



*Yaxın gələcəkdə ölkədə vergi sistemini dəyişdirmək planlaşdırılır. Bu barədə məlumat verən maliyyə naziri Rimantas Şadjyus bildirib ki, dövlətin maliyyə imkanları yaranan kimi, vergilərin səviyyəsi aşağı salınacaq, əmlaka vergi isə dövlət büdcəsində daha əhəmiyyətli rol oynamağa başlayacaq.*

«Hazırda dünya vergitutma sistemində əsas tendensiya işçi qüvvəsinə vergiləri azaltmaqdır. İşçi qüvvəsinə vergilər dedikdə, gəlir və sosial sığorta vergiləri nəzərdə tutulur. Düşünürəm ki, gələcəkdə bizdə də belə olacaq və imkan yaranan kimi, əməyin vergiyə cəlb edilməsini aşağı salmaq lazım gələcək», - deyə R.Şadjyus deyib. Onun sözlərinə görə, ən çox gəlir gətirən və səmərəli vergi ƏDV hesab edilir. Lakin gələcəkdə onun dərəcəsini artırmaq planlaşdırılmır: «Mən düşünmürəm ki, ƏDV tarifinin artımı düzgün addım olardı. Uzun müddətdir ki, sabitləşmiş 21%-lik dərəcə qonşu ölkələrin orta göstəricisinə də uyğundur. Böhran illərində biz bu dərəcəni bir-iki bənd artırmışdıq. Gələcəkdə ƏDV dərəcəsinin azalacağını demək çətindir. Çünki bu vergidən daxilolmalar büdcənin mühüm gəlir mənbəyidir, lakin belə bir fikir də var ki, tarifi azaltmaqla istehlakı təşviq etmək mümkündür».

## Belarusda «tüfeylilik vergisi» tətbiq olunacaq

*Ölkə Prezidenti Aleksandr Lukaşenko «Sosial himayədə yaşamanın qarşısının alınması haqqında» dekret imzalayıb. Hüquqi aktın məqsədi əmək qabiliyyətli vətəndaşların əmək fəaliyyətinə cəlb olunmasını stimullaşdırmaq və onların dövlət xərclərinin maliyyələşdirilməsində iştiraka dair Konstitusiya vəzifələrinin icrasını təmin etməkdir.*

Sənədə əsasən, dövlət xərclərinin maliyyələşdirilməsində iştirak etməyən Belarus vətəndaşlarının, respublikada daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin 20 baza kəmiyyəti miqdarında (təqribən $240) rüsum ödəməsi nəzərdə tutulur. Dekretdə rüsum ödəməkdən azad olunan vətəndaşların kateqoriyalarının tam siyahısı da müəyyənləşdirilib. Bunlar əmək qabiliyyəti olmayan vətəndaşlar, əlillər, 18 yaşından aşağı şəxslər, 55 yaşına çatmış qadınlar, 60 yaşına çatmış kişilər və digər kateqoriyadan olan insanlardır. Rüsumun ödənilməməsi və ya tam məbləğdə ödənilməməsi cərimə və ya ictimai faydalı işlərə cəlb edilməklə inzibati həbslə cəzalandırılır.

*Xarici ölkələrin təcrübəsi*

# Cənubi Koreya Respublikasının vergi sistemi: *mənfəət vergisi*

**Əvvəli ötən sayımızda**

***Çıxılmalar.*** Aşağı gəlirli fiziki şəxslərə münasibətdə 500 avroyadək məbləğdə vergi çıxılması tətbiq edilir. Əməkhaqqı və gəlir əldə edən şəxslərə isə vergi ödəyicilərinin assosiasiyası vasitəsilə ödənilmiş gəlir vergilərinə münasibətdə 10% vergi çıxılması tətbiq olunur.

2014-cü ildən etibarən tibbi, təhsil və ianə xərcləri üzrə 15%, pensiya ödəmələri üzrə isə 12% vergi çıxılması tətbiq edilir.

***Güzəştlər:*** Qlobal gəlirləri olan rezident fiziki şəxslər özü, əri/arvadı və öhdəliyində olan şəxslərin hər biri üzrə 1200 avro məbləğində illik çıxılma hüququ əldə edir.

Aşağıdakı şəxslərə münasibətdə əlavə çıxılmalar tətbiq edilir:

- yaşı 70 və daha çox olan şəxslərə (800 avro);
- əlillərə (1 600 avro);
- öhdəliyində şəxslər olan ailənin xanım başçısına (400 avro).

***Zərərin keçirilməsi:*** Sahibkarlıq fəaliyyəti zamanı yaranmış zərərlər növbəti 10 illik dövrə keçirilə bilər (2009-cü ilədək yaranmış zərərlər - 5 il). Kiçik və orta müəssisələrin zərərləri 1 il geriyə aid edilə bilər və bu zaman əvəzləşdirilmə təqdim olunur. Sahibkarlıq fəaliyyəti zamanı yaranmış zərər digər gəlir növləri hesabına kompensasiya edilə bilər.

Kapital zərərləri eyni qrupdan olan (misal üçün: ya daşınmaz əmlak, ya da qiymətli kağızlar) kapital gəlirləri hesabına kompensasiya edilə bilər. Kapital zərərləri növbəti dövrə keçirilə bilməz.

***Ödəmə mənbəyində tutulan vergilər:*** Əməkhaqqı və gəlirlər, pensiya gəlirləri və ödəmə mənbəyində tutulan təqaüd gəlirləri əsas proqressiv dərəcələrlə ödəmə mənbəyində vergiyə cəlb olunur. Günəmuzd işçilərə ödənilən məbləğlər ödəmə mənbəyində 6% dərəcə ilə vergiyə cəlb olunur. Yerli vergilər də 10% dərəcə ilə ödəmə mənbəyində vergiyə cəlb olunur.

***Digər gəlir növləri üzrə ödəmə mənbəyində vergi aşağıdakı dərəcələrlə tətbiq edilir:***

| | Dərəcə (%-lə) |
|---|---|
| Qlobal gəlirə daxil edilməyən faiz gəlirləri | 14 |
| Qlobal gəlirə daxil edilməyən dividend gəlirləri | 14 |
| Sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlər (yalnız sadalanan gəlirlər) | 3 |
| Digər gəlirlər | 20 |

***Vergi dövrü:*** Koreya Respublikasında vergi dövrü təqvim ili hesab edilir. Sahibkarlıq fəaliyyətinə təvdim ili ərzində başlanarsa və ya xitam verilərsə, vergi dövrü həmin tarixdə başlanır və ya başa çatır.

***Vergi bəyannamələrinin təqdim edilməsi müddəti:*** Qlobal gəlir, kapital gəlirləri və təqaüd gəlirləri əldə edən fiziki şəxslər vergi bəyannamələrini növbəti ilin may ayınadək təqdim etməlidirlər. Aşağıdakı gəlirləri əldə edən fiziki şəxslərin bəyannamə təqdim etmələri tələb olunmur:

- yalnız ödəmə mənbəyində vergi tutulduğu halda muzdlu işdən gəlir və/və ya təqaüd gəlirləri əldə edən şəxslər; və
- yalnız ödəmə mənbəyində vergi tutulan faiz gəlirləri, dividend gəlirləri, pensiya gəlirləri və ya digər gəlirləri əldə etmiş şəxslər.

***Verginin ödənilmə müddəti:*** Bəyannamə təqdim edilməli qlobal gəlirləri olan rezident fiziki şəxslər 1 yanvar-30 iyun tarixləri arasında qabaqcadan ödəmələr şəklində qlobal gəlir vergisinə cəlb olunurlar. Qabaqcadan ödənilən verginin məbləği vergi ödəyicisi tərəfindən əvvəlki ildə ödənilmiş və ya ödənilməli olan qlobal vergi məbləğinin yarısına bərabərdir və noyabr ayının sonunadək ödənilməlidir.

Muzdlu işdən əməkhaqqı və gəlir ödəmə mənbəyində vergiyə cəlb olunur. Qabaqcadan ödəmələr və ödəmə mənbəyində vergiyə cəlb edilən hər hansı vergi son vergi öhdəliyi hesablanarkən nəzərə alınır. Son vergi bəyannamə təqdim edilərkən ödənilməlidir. Əlavə ödənilmiş vergilər geri qaytarılır.



*Rubrika üçün materialları Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsi təqdim edib*

krossvord



**Yuxarıdan aşağı:** 1.Eramızdan əvvə IX-VI əsrlərdə mövcud olmuş Manna dövlətinin paytaxtı; 2.Rəngsiz qaz (CH2); 3.İslam dininin müqəddəs və ən əsas kitabı; 4.Tatarıstan Respublikasından keçən çay; 5.Polineziya xalqı; 6.«Qızıl uçurum» filmində (1980) aktrisa Həmidə Ömərovanın canlandırdığı obraz; 9.Əsasən qəzəl və həcvlər yazmış XVIII əsr Azərbaycan şairlərinin adı. Əsərlərində zülm və haqsızlıqlardan, vəfalı sirdaşın yoxluğundan şikayətlənmiş, Şamaxı hakimi Mustafa xanı və onun əyanlarını tənqid etmişdir; 13.Hər bir ədəbi dil üçün qəbul edilmiş vahid və düzgün yazı sistemi; 15.Hərbi dəniz donanmasında ən yüksək rütbə; 16.«Əkinçi» - Azərbaycanın ilk milli qəzeti; 17. Məşhur ingilis dramaturqu Uilyam Şekspirin əsəri; 18. 11 nəfərdən ibarət 2 komanda arasında çubuq və topun köməyi ilə mərkəzində 20 metr uzunluğunda düzbucaqlı bir sahə olan oval məkanda oynanan komanda oyunu; 20. Fransanın paytaxtı; 21. Açıq kuzalı yüngül kommersiya avtomobili. **Soldan sağa:** 1.İmmiqrant - Həmişəlik və ya müəyyən müddətə iş axtarmaq məqsədilə və ya siyasi və dini səbəblərə görə digər ölkəyə köçən şəxs; 5. Lobya; 7.Bir şeyi digərindən ayıran ara, aralıq, məsafə; 8.Təbii yanacaq növü; 10.Bir şey almaq hüququ verən kiçik vərəqə şəklində sənəd; 11.Əyləncə xarakteri daşıyan idman növü. Kiçik idman avtomobili; 12. İçində xaş-xaş kimi xırda tumları olan şirin, yumşaq qabıqlı meyvə; 14.Hüquqi və ya fiziki şəxsin borc iltizamlarını vaxtında ödəyə bilməməsi nəticəsində müflis olması; 19. Müğənnilərdən və musiqi alətlərində ifa edən çalğıçılardan ibarət ansambl; 21.Mərkəzi Asiyanın şimalında dağ sistemi; 22.Stolüstü oyun; 23.Elektrotexnika və energetika sahələrində elektrocihaz və elektrik dövrəsinin montajı, istismarı və ona qulluq edən şəxs (peşə); 24.On bir dildə nəşr edilən Azərbaycan jurnalı; 25.Müasir təyyarə, vertolyot, raket və mərmilərin uçuşunu avtomatik idarə edən cihaz və proqram-aparat kompleksi.



*«Qızıl uçurum » filmindən fraqment*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Vivari; 2.Siyaqut; 3.Orman; 4.Sonata; 5.Minsk; 6.Turnir; 9.Ərik; 13.Elen Kuragina *(Bezuxova)*; 15.Paritet; 16.Mayqıl; 17.Oklend; 18.Qarnir; 20.Akson; 21.Mayak. **Soldan sağa:** 1.Viskonsin; 5.Mat; 7.Vayominq; 8.Enqr *(Jan Oqüst Dominik)*; 10.Reqin; 11.Turukki; 12.Atlet; 14.Okapi; 19.Arabesk; 21.Marka; 22.Qüsl; 23.Felyeton; 24.Lan; 25.İndikator.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev, *anar.eliyev@taxes.gov.az*

**Baş redaktor müavini:** Məti Osmanoğlu, *redaksiya@vergiler.az*

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 14000**

idman

# Gənc güləşçilərimiz dünya çempionatına hazırlaşırlar

Yunan-Roma güləşi üzrə gənclərdən ibarət Azərbaycan yığma komandası avqustun 11-12-də Braziliyanın Salvador şəhərində keçiriləcək dünya çempionatına hazırlıqlarını Quba Olimpiya İdman Kompleksində davam etdirir.

Baş məşqçi Şaban Donat, məşqçilər Zöhrab Abbasov və Turac Hüseynovun rəhbərlik etdikləri təlim-məşq toplanışına yığma komandanın 29 üzvü qatılıb. Pəhləvanlarla gün ərzində iki məşq prosesi keçirilir. Məşqlərdə həm fiziki, həm də texniki hazırlıqlara diqqət yetirilir. Gənclərdən ibarət Azərbaycan yığma komandası dünya çempionatında 8 idmançı ilə təmsil olunacaq.



Baş məşqçi gənc güləşçilərimizin dünya çempionatında medal qazanmaq şanslarını yüksək qiymətləndirib: «Dünya çempionatına qatılan 8 güləşçimizdən ən azı 5 medal gözləyirəm. Bu yarışda pəhləvanlarımızın çox güclü rəqibləri olacaq. Buna baxmayaraq, son Avropa çempionatının qalibləri İslam Abbasov, Nofəl Babayev, gümüş medalçı Murad Məmmədov və digərləri medal qazanmaq üçün əllərindən gələni edəcəklər. Biz bu yarışa ciddi hazırlaşırıq».

Gənc güləşçilərimizin Quba Olimpiya İdman Kompleksində hazırlığı iyulun 29-dək davam edəcək.

# "Tour de Qinghai Lake" velosiped yürüşünə yekun vurulub

*Çində keçirilən 14-cü «Tour de Qinghai Lake» veloyürüşü başa çatıb. Azərbaycanın kontinental velosiped komandası «Synergy Baku Cycling Project»in də qatıldığı Beynəlxalq Velosipedçilər İttifaqının 13 mərhələdən ibarət ikinci kateqoriyalı yarışında ümumilikdə 22 komanda iştirak edib.*



Yarışın sonuncu - 13-cü mərhələsində iştirakçılar 135 kilometr məsafə qət ediblər. Altı velosipedçimizdən beşi - Yannis Tamuridis, Matey Müqerli, Samir Cəbrayılov, Maksim Averin və Elçin Əsədov finişi mərhələ qalibi ilə eyni vaxtda - 2 saat 54 dəqiqə 2 saniyəyə keçiblər. Fotofinişə əsasən, komandamızın üzvlərindən ən yaxşı göstərici Yannis Tamuridis məxsus olub - o, doqquzuncu yeri tutub.

Beləliklə, 13 mərhələnin yekununa əsasən, ümumi təsnifatın ilk onluğunda Azərbaycan velosipedçisi M.Müqerli yer alıb. İdmançımız yarışın qalibinə 3 dəqiqə 30 saniyə uduzaraq doqquzuncu yeri tutub. Komanda hesabında isə «Synergy Baku» 22 kollektiv arasında altıncı nəticə göstərib.

# Paralimpiyaçılarımızın növbəti uğuru

*Böyük Britaniyanın Qlazqo şəhərində paralimpiyaçılar arasında üzgüçülük üzrə dünya çempionatı başa çatıb.*

Yarışların sonuncu günündə Azərbaycan Milli Paralimpiya Komitəsinin idmançıları daha 3 medala sahib olublar. Roman Saley 50 metr məsafəyə sərbəst üsulla üzgüçülük yarışlarında gümüş medal qazanıb. Dmitri Saley 100 metr məsafəyə «butterfly», 50 metr məsafəyə isə sərbəst üsulla üzgüçülük yarışlarında üçüncü olub. Beləliklə, üzgüçülük üzrə dünya çempionatında paralimpiyaçı idmançılarımız 2 gümüş və 3 bürünc medalla Vətənə qayıdırlar.

Qeyd edək ki, bu yarışın nəticəsi olaraq, hər iki idmançımız «Rio-2016» Yay Paralimpiya Oyunlarına ikinci lisenziyanı qazanıblar.

# İdmançımız Avropa rekordunu təzələdi




Azərbaycanlı yüngül atlet Nazim Babayev İsveçin Eskilstuna şəhərində keçirilən gənclər arasında Avropa çempionatının qalibi olub.

İdmançımız uzunluğa tullanma yarışlarının finalında 17,04 metr nəticə göstərərək qızıl medal qazanıb. Qeyd edək ki, gənc atletimiz bu nəticə ilə 30 illik Avropa rekordunu təzələyib. Bundan başqa, 17 yaşlı N.Babayev 2016-cı ildə «Rio-2016» Olimpiya Oyunlarına da lisenziya qazanıb.

mozaika

texnologiya

# Ən nazik yeni nəsil lampa...

Kolumbiya Universitetinin tədqiqatçıları lampaların qrafenin tətbiqinə əsaslanan yeni texnologiyasını hazırlayıblar. İşıq diodlarını əvəz edə bilən karbon lampaların işıqlandırmağa başlaması üçün qrafeni qızdıran xüsusi çipdən istifadə edirlər. Faktiki olaraq, ənənəvi közərmə lampaları həmin prinsip əsasında işləyir, lakin közərmənin qrafen tellərinin qalınlığı cəmi bir atom təşkil edir. Yeni nəsil lampalar isə analoqları ilə müqayisədə daha nazik olacaq.



Alimlərin bildirdiyinə görə, hazırladıqları qrafen teli ilə birlikdə işləyən «qızdırıcı» çipi digər sahələrdə də (müxtəlif kimyəvi preparatların qızdırılması, kimyəvi reaksiyaların öyrənilməsi üçün və s.) tətbiq etmək mümkündür. Tədqiqatçılar iddia edirlər ki, yeni texnologiya əvvəlkilərdən xeyli fərqlənir və bir sıra üstünlüklərə malikdir.

elm

# Azərbaycan alimlərindən ilk

*Azərbaycan alimləri apardıqları elmi araşdırmalardan sonra Günəşlə bağlı dəyişikliklərin arıların məhsuldarlığına təsir göstərə biləcəyi qənaətinə gəliblər.*

Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasının direktor müavini Elçin Babayev bildirib ki, dünya üzrə bir neçə ili əhatə edən statistik məlumatlar əsasında aparılmış və müasir spektral analiz üsullarının tətbiq edildiyi araşdırmaların nəticələrinə əsasən, Günəş və geomaqnit fəallıqlarının minimum olduğu illərin üst-üstə düşdüyü illərdə bal arılarının məhsuldarlığı artır.

Alimin sözlərinə görə, həmin illərdə məhsuldarlığın artması bal arılarının qarın hissəsində nanoölçülü maqnetit hissəciklərinin mövcudluğu və kiçik səviyyəli geomaqnit həyəcanlanmalarının onlara «gümrahlıq» yaradan qıcıq verməsi ilə izah edilə bilər: «Başqa sözlə, kiçik səviyyəli geomaqnit həyəcanlanmaları arıları qıvraq olmağa və daha çox işləməyə sövq edir. Təbii ki, bununla bağlı izahlar çox ola bilər, lakin multidissiplinar yanaşmalardan biri kimi yuxarıda qeyd olunan «maqnitreseptor» təsir mexanizmi maraq doğurur. Artıq sübut olunub ki, bal arıları geomaqnit sahəsinə və onun həyəcanlanmalarına reaksiya verirlər. Bir arı haradasa yaxşı məhsul tapan zaman onu başqa arılara xəbər etmək üçün «8» formasında rəqs edir. Geomaqnit həyəcanlanması olan günlərdə isə onların həmin rəqsi zamanı 20 faizə qədər hallarda pozulmalar baş verir».

E.Babayev qeyd edib ki, araşdırmaların nəticələrinə əsasən, Günəş fəallığı çox olan illərdə bal arılarının beçələri də daha çox əmələ gəlir, bu say Günəş üçün mühüm olan kvazi - onbirillik periodla dəyişir.



Alimin sözlərinə görə, sadalanan amillərlə əlaqədar ötən il arıların məhsuldarlığının az olacağı nəticəsinə gəlinib və həmin nəticə də özünü doğruldub: «Bu istiqamətdə daha geniş araşdırmaların aparılması nı təmin etmək üçün ölkədə arıçılıqla bağlı statistikanı özündə əks etdirən mərkəzləşdirilmiş məlumat bazasının və ya saytın yaradılmasına ehtiyac var. O, analoji sistemin artıq bəzi Avropa ölkələrində yaradıldığını da qeyd edib: «Azərbaycanda məlumat bazasını toplamaq üçün elə bir mərkəzləşdirilmiş sistem yoxdur. Bu sahədə Avropa ölkələrinin təcrübəsi var, onların xüsusi internet səhifələri fəaliyyət göstərir və orada bu sahə ilə bağlı məlumatlar yerləşdirilir».

sağlam həyat tərzi

# Velosipeddən müntəzəm istifadə ömrü uzadır

Hollandiyanın Utrecht Universitetində aparılan araşdırmada velosipeddən mütəmadi istifadə edən insanların digərlərindən daha çox yaşadığı məlum olub. Statistik məlumatlara əsasən, həftədə orta hesabla 75 dəqiqə velosiped sürən insan öz ömrünü altı ay uzatmağa nail olur.

Dünya Səhiyyə Təşkilatı və Hollandiya Statistika Bürosunun məlumatına əsasən, ölkədə ildə təxminən 11 min nəfər velosipeddən istifadə etdiyi üçün daha çox yaşamaq şansı qazanır. Velosipeddən istifadənin faydalı olduğu barədə ilk dəfə məlumat əldə edən alimlər bununla bağlı təbliğatın daha geniş aparılmasını tövsiyə ediblər.

On altı milyon əhalisi olan Hollandiya dünyada velosipeddən istifadəyə görə ön sıralardadır. Bu ölkədə 18 milyon velosiped var.



maraqlı

# "Kosmik yumurta" - yaşayış evi

*«Global House» yaşayış evinin layihə müəllifi fransalı Daniel Korsi və onun gənc memar dostlarıdır. Memarların yeni dizaynda təklif etdikləri layihədə evin divar, tavan və döşəməsinin yoxluğu onun genişlik imkanlarını artırır.*



Memarlar belə hesab edirlər ki, bu cür tikililər əslində dünyanın hər yerində inşa olunmalıdır, yalnız o zaman ev doğrudan da qlobal adını daşıya bilər.

Layihə müəllifləri binaya «kosmik yumurta» görkəmini veriblər. Ev özü isə şərti olaraq 3 hissəyə bölünüb. Ən böyük hissəsi qonaqlar, 2-ci hissəsi istirahət zonası, digəri isə vanna otağı və işçi zonaya ayrılıb. Binanın örtüyü xüsusi qatlardan ibarətdir. Xarici qat Günəşin istiliyini toplayaraq elektrik enerjisinə çevirir, orta qat isə binanın əsasını təşkil edən metal konstruksiyadan ibarətdir.

**Müdriklər deyib ki...**



***«Hər kəsin 3 şəxsiyyəti vardır: ortaya çıxardığı, sahib olduğu, sahib olduğunu sandığı».***

**Alfons Karr (1808 - 1890)**